
Doğma, canım-varlığım qədər sevdiyim
Azərbaycanım mənim qibləgahımdır

100 ilin qəzeti

# ŞƏRQ QAPISI

Sayı: 25 (24.511)
4 iyul 2026-cı il, şənbə

www.serqqapisi.az

Təsisçi: Naxçıvan Muxtar Respublikasının Ali Məclisi

# Bakı dialoqu:

## Azərbaycan-Avropa İttifaqı münasibətlərində yeni strateji mərhələ



Azərbaycan ilə Avropa İttifaqı arasında münasibətlər Vətən müharibəsindən sonra regionda formalaşan yeni geosiyasi reallıqlar fonunda keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoyub. Xüsusilə enerji təhlükəsizliyi, nəqliyyat-kommunikasiya, "yaşıl enerji" və regional sabitlik istiqamətlərində əməkdaşlığın genişlənməsi tərəflərin strateji maraqlarının üst-üstə düşdüyünü göstərir. Son dövrlərdə Avropa İttifaqının yüksək səviyyəli rəsmilərinin Azərbaycana ardıcıl səfərləri də bu münasibətlərin intensiv inkişafının göstəricisi kimi qiymətləndirilir. Bu baxımdan, ötən ilin may və oktyabr aylarında keçirilən Avropa Siyasi Birliyinin Zirvə toplantıları ikitərəfli gündəlikdə yer alan məsələlərin ətraflı müzakirəsi və əməkdaşlığın gələcək istiqamətlərinin müəyyənləşdirilməsi üçün mühüm platforma rolunu oynayıb. Eyni zamanda bu ilin martında Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koştanın, may ayında isə Avropa diplomatiyasının rəhbəri Kaya Kallasın ölkəmizə səfərləri zamanı keçirilən görüşlər Azərbaycan-Avropa İttifaqı münasibətlərinin əhəmiyyətini və strateji xarakterini bir daha nümayiş etdirib. İyulun 1-də Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayenin Azərbaycana səfəri və Prezident İlham Əliyevlə keçirilən görüşlər isə münasibətlərin dərinləşməsi, yeni əməkdaşlıq imkanlarının qiymətləndirilməsi və strateji tərəfdaşlığın daha da möhkəmləndirilməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Geniştərkibli görüşdə Ursula Fon der Lyayen Azərbaycanın Avropa İttifaqının strateji tərəfdaşı olduğunu vurğulayaraq tərəflər arasında münasibətlərin möhkəm təməllər üzərində inkişaf etdiyini və Prezident İlham Əliyevin sülh gündəliyi üzrə liderliyinin yüksək qiymətləndirildiyini bildirdi. O, Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması, ticarət əlaqələrinin başlanması və nəqliyyat-tranzit əməkdaşlığını müsbət dəyərləndirərək Avropa İttifaqının sülh prosesinə hərtərəfli dəstək verməyə hazır olduğunu qeyd etdi. Görüşdə Azərbaycanın Mərkəzi Asiya ilə Avropa arasında mühüm bağlantı rolu və Avropanın enerji təhlükəsizliyinə etibarlı tərəfdaş kimi verdiyi töhfə, xüsusilə qaz ixracının artması diqqətə çatdırıldı.

Səhifə ⇨ 2

### Azərbaycanın investisiya strategiyası və xarici kapitalın özəl sektorda artan rolu




Səhifə ⇨ 3

### Naxçıvanda yeni tekstil istehsalı müəssisəsi istifadəyə verilib



Səhifə ⇨ 5

### Azərbaycanın geoiqtisadi və geosiyasi gücünü göstərən strateji layihə



Səhifə ⇨ 7

### 265 hektarda buğda biçini aparılıb: Naxçıvanda taxıl yığımı davam edir



Səhifə ⇨ 8

### NDU-nun 56-cı "Məzun günü" möhtəşəm konsert proqramı və unudulmaz anlarla yadda qalıb



Səhifə ⇨ 9

# Bakı dialoqu:

## Azərbaycan-Avropa İttifaqı münasibətlərində yeni strateji mərhələ



***Prezidentlərin mətbuata bəyanatında enerji tərəfdaşlığının genişləndirilməsi, Cənub Qaz Dəhlizinin potensialının artırılması, bərpa olunan enerji layihələrinin inkişafı və Orta Dəhlizdən daha səmərəli istifadə məsələləri yer aldı. Eyni zamanda regional sülh və sabitlik diqqət mərkəzində oldu. Tərəflər qarşılıqlı etimada əsaslanan dialoqun, regional sülh və praktiki əməkdaşlığın genişləndirilməsinin Azərbaycan və Avropa İttifaqının uzunmüddətli maraqlarına xidmət etdiyini vurğuladılar.***

*(əvvəli 1-ci səhifədə)*

***Azərbaycan-Aİ: enerji, ticarət və yaşıl keçiddə əməkdaşlığın genişlənməsi***

Avropa İttifaqı hazırda Azərbaycanın ən böyük ticarət tərəfdaşıdır. Belə ki, Azərbaycanın xarici ticarət dövriyyəsinin 40 faizdən çoxu Avropa İttifaqı ölkələri ilə formalaşır. Bununla yanaşı, Avropa İttifaqının Cənubi Qafqaz üzrə ümumi ticarət dövriyyəsinin, təxminən, 70 faizi də Azərbaycanın payına düşür. Bu göstəricilər ölkəmizin regionun əsas iqtisadi tərəfdaşı statusunu bir daha təsdiqləyir.

Enerji əməkdaşlığı Azərbaycan-Avropa İttifaqı münasibətlərinin əsas dayaqlarından biridir. 2022-ci il iyulun 18-də Bakıda imzalanmış "Enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu"ndan sonra Azərbaycan Avropaya təbii qaz ixracını sürətlə artırmaqdadır. Hazırda Azərbaycanın qaz ixracının, təxminən, yarısı Avropa bazarına yönəldilir və Avropa İttifaqının 10 üzv dövləti Azərbaycan qazı ilə təmin olunur. Son dörd ildə Avropa İttifaqına qaz ixracının, təxminən, 65 faiz artması Azərbaycanın Avropanın enerji təhlükəsizliyində əvəzsiz tərəfdaş olduğunu göstərir. Enerji sahəsində uğurlu əməkdaşlığın əsasını isə Cənub Qaz Dəhlizi təşkil edir. Təxminən, 3500 kilometr uzunluğunda olan bu beynəlxalq enerji infrastrukturu "Şahdəniz" yatağından hasil olunan qazı Cənubi Qafqaz Boru Kəməri, TANAP və TAP vasitəsilə Avropa bazarına çatdırır. Milyardlarla dollar sərmayə hesabına reallaşdırılan layihə bu gün Avropanın enerji mənbələrinin şaxələndirilməsində ən mühüm layihələrdən biri hesab olunur. Azərbaycan paralel olaraq "yaşıl enerji" sahəsində də iddialı proqram həyata keçirir. BƏƏ-nin "Masdar", Səudiyyə Ərəbistanının "ACWA Power" şirkətləri və digər beynəlxalq investorlarla imzalanmış müqavilələr çərçivəsində yaxın 5-6 il ərzində ölkədə 8 giqavat gücündə günəş və külək enerjisi istehsalı planlaşdırılır. Bu həm daxili tələbatın ödənilməsinə, həm də gələcəkdə "yaşıl enerji"nin Avropaya ixracına imkan yaradacaq. Xəzər dənizinin dibi ilə nəzərdə tutulan kabel və Qara dəniz sualtı elektrik kabeli kimi layihələr Azərbaycan-Avropa enerji əlaqələrinin gücləndirilməsinə və bərpa olunan enerji potensialının ixracına xidmət edir.

Azərbaycanın geostrateji mövqeyi nəqliyyat və logistika sahəsində də onun əhəmiyyətini artırır. Ölkəmiz Şərq-Qərb (Orta Dəhliz) və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizlərinin əsas iştirakçılarından biridir. Son illərdə Bakı Beynəlxalq Dəniz Ticarət Limanının yükötürmə qabiliyyətinin artırılması, Bakı-Tbilisi-Qars dəmir yolunun modernləşdirilməsi və yeni logistika mərkəzlərinin yaradılması Azərbaycanın tranzit potensialını əhəmiyyətli dərəcədə gücləndirib. Qlobal ticarət marşrutlarının yenidən formalaşdığı indiki şəraitdə Orta Dəhliz Avropa ilə Asiyanı birləşdirən ən perspektivli marşrutlardan biri kimi qiymətləndirilir. İyulun 1-də Prezident İlham Əliyev Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen ilə mətbuata bəyanatında Azərbaycan-Avropa İttifaqı əməkdaşlığının bütün istiqamətlər üzrə uğurla inkişaf etdiyini bildirdi, gələcəkdə bərpa olunan enerji sahəsində də strateji tərəfdaşlığın mümkünlüyünü vurğuladı. Sitat: ***"Avropa Komissiyası ilə münasibətlərimizin kifayət dərəcədə yeni hissəsi bərpa olunan enerji ilə bağlıdır. Biz xanım Prezidentlə, həmçinin Azərbaycanın günəş, külək və su elektrik enerji potensialını, o cümlədən artıq mövcud ötürmə xətlərini və tikiləcək yeni xətləri geniş şəkildə müzakirə etdik. Bu baxımdan, biz həmçinin strateji tərəfdaş ola bilərik".***

***Praqmatik siyasətin real nəticələri – regional sülh və əməkdaşlığın möhkəmlənən təməli***

Prezident İlham Əliyevin həyata keçirdiyi məharətli diplomatiya, praqmatik siyasət nəticəsində Cənubi Qafqazda sülh və əməkdaşlıq üçün yeni imkanlar yaranmaqdadır. Bu baxımdan, Ermənistanla münasibətlərin normallaşması istiqamətində atılan addımlar artıq yalnız diplomatik müstəvidə deyil, praktik səviyyədə də öz nəticələrini göstərir. Ötən il avqustun 8-də Vaşinqtonda imzalanan Birgə Bəyannamə və sülh sazişi mətninin paraflanması regionda uzunmüddətli sabitliyin formalaşmasında mühüm mərhələ hesab olunur.

Vaşinqton Zirvəsindən ötən bir ilə yaxın müddətdə Azərbaycan sülh gündəliyinə sadiqliyini konkret addımlarla nümayiş etdirir. Ermənistan istiqamətində yük tranzitinə tətbiq olunan məhdudiyyətlərin aradan qaldırılması, eləcə də benzin və dizel yanacağının tədarükünə başlanılması qarşılıqlı etimadın möhkəmlənməsinə və iqtisadi əməkdaşlığın genişlənməsinə xidmət edir. Bu addımlar regionda yeni əməkdaşlıq mühitinin formalaşdığını göstərir. Eyni zamanda Avropa Komissiyasının sülh prosesinə dəstəyi və Azərbaycanın bu dəstəyi yüksək qiymətləndirməsi Cənubi Qafqazda davamlı sülhün təmin olunması istiqamətində beynəlxalq əməkdaşlığın əhəmiyyətini bir daha təsdiqləyir. Məqsəd bölgəni uzunmüddətli əməkdaşlıq, inkişaf və sabitlik regionuna çevirməkdir. İyulun 1-də Prezident İlham Əliyevin Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen ilə mətbuata bəyanatında dediyi kimi: ***"Xanım Prezident, həmçinin mənə məlumat verdi ki, Avropa Komissiyası çox kömək edə bilər və bunu arzulayır. Bu baxımdan, biz hər hansı köməyi, hər hansı yardımı yüksək dəyərləndirirdik. Düşünürəm ki, bütün bunlar regiondakı dinamikanı gücləndirərək Cənubi Qafqazı hər hansı ərazi iddialarından, hər hansı münaqişədən azad, tərəfdaşlıq, əməkdaşlıq və sülh regionuna çevirəcək".***

İyulun 1-də Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayenin ölkəmizə səfəri çərçivəsində Bakıda keçirilən yüksək səviyyəli dialoqlar bir daha təsdiqlədi ki, Azərbaycan-Avropa İttifaqı münasibətləri artıq ənənəvi tərəfdaşlıq çərçivəsini aşaraq yeni strateji məzmun qazanır. Prezident İlham Əliyevin həyata keçirdiyi uzaqgörən və praqmatik xarici siyasət nəticəsində ölkəmiz enerji təhlükəsizliyinin təminatçısı, Orta Dəhlizin əsas həlqəsi, "yaşıl enerji" keçidinin etibarlı tərəfdaşı və Cənubi Qafqazda sülh gündəliyinin aparıcı təşəbbüskarı kimi beynəlxalq mövqeyini daha da möhkəmləndirib. Qarşılıqlı etimada, ortaq maraqlara və uzunmüddətli strateji baxışa söykənən bu əməkdaşlıq modeli həm Azərbaycanın milli maraqlarına xidmət edir, həm də Avropanın enerji təhlükəsizliyi, nəqliyyat bağlantıları və regional sabitliyi baxımından mühüm əhəmiyyət daşıyır. Bütün bunlar göstərir ki, Bakı dialoqu təkcə bugünkü əməkdaşlığın deyil, həm də Azərbaycan-Avropa İttifaqı münasibətlərinin gələcək inkişaf mərhələsini müəyyənləşdirən mühüm siyasi hadisə kimi tarixə düşür.



**Nail ƏSGƏROV**

# Azərbaycanın investisiya strategiyası və xarici kapitalın özəl sektorda artan rolu

*Müasir dünya iqtisadiyyatında xarici investisiyalar ölkələrin davamlı iqtisadi inkişafını təmin edən əsas amillərdən biri hesab edilir. İnvestisiya axınları təkcə maliyyə vəsaitlərinin cəlb edilməsi ilə məhdudlaşmır, eyni zamanda yeni texnologiyaların transferinə, qabaqcıl idarəetmə təcrübəsinin mənimsənilməsinə, istehsalın modernləşdirilməsinə, ixrac potensialının genişlənməsinə və yeni iş yerlərinin yaradılmasına şərait yaradır. Qlobal iqtisadi və geosiyasi proseslərin sürətlə dəyişdiyi bir dövrdə dövlətlər arasında investisiya uğrunda rəqabət daha da güclənib. Belə bir şəraitdə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən ardıcıl iqtisadi islahatlar, biznes və investisiya mühitinin təkmilləşdirilməsi, sahibkarlığın dəstəklənməsi və iqtisadiyyatın şaxələndirilməsi siyasəti Azərbaycanı regionun ən cəlbedici investisiya məkanlarından birinə çevirib.*



Bunu ötən ilin statistik göstəriciləri də təsdiqləyir. Belə ki, 2025-ci ildə xarici rezidentlər tərəfindən Azərbaycan iqtisadiyyatına 6 milyard 595 milyon dollar investisiya yatırılıb. Ölkəmizə yönəldilən investisiyanın həcminə görə birinci yeri 1 milyard 735,8 milyon ABŞ dolları ilə Böyük Britaniya tutub. Növbəti yerlərdə isə Türkiyə (1 milyard 230,85 milyon dollar), Cənubi Kipr (751,1 milyon dollar), Birləşmiş Ərəb Əmirlikləri (404,8 milyon dollar) və İran (375,3 milyon dollar) qərarlaşıb. Xarici investorların maraq göstərdiyi əsas istiqamətlər sırasında kənd təsərrüfatı, qida sənayesi, logistika, tikinti materiallarının istehsalı, kimya və metallurgiya sənayesi, turizm, informasiya-kommunikasiya texnologiyaları, maliyyə xidmətləri, eləcə də bərpa olunan enerji sektoru xüsusi yer tutur.

Azərbaycanın investisiya mühitini fərqləndirən əsas xüsusiyyətlərdən biri burada siyasi və makroiqtisadi sabitliyin qorunmasıdır. Məhz investorlar üçün ən mühüm meyarlardan biri uzunmüddətli iqtisadi proqnozlaşdırmanın mümkün olmasıdır. Azərbaycanda dövlət maliyyəsinin dayanıqlılığı, strateji valyuta ehtiyatlarının yüksək səviyyədə saxlanılması və dövlət borcunun idarə olunması iqtisadi təhlükəsizliyin vacib elementləri kimi çıxış edir. Ölkənin strateji valyuta ehtiyatlarının xarici dövlət borcunu dəfələrlə üstələməsi beynəlxalq investorlar üçün mühüm etimad amillərindən biridir. Prezident İlham Əliyev cari il iyunun 1-də “Bakı Enerji Həftəsi”nin açılış tədbirində çıxışı zamanı bu məsələyə toxunaraq bildirib: ***“Bu gün Azərbaycanın iqtisadi fəaliyyəti çox müsbətdir. Aparıcı beynəlxalq reytinq agentliklərindəki reytinqimiz ildən-ilə artır. Hazırkı vəziyyətə görə bizim artıq investisiya dərəcəli reytinqimiz var. Yoxsulluq səviyyəsi 5 faizə enib, işsizlik də, təqribən, eyni rəqəm səviyyəsindədir. Biz xarici borcumuzu əhəmiyyətli dərəcədə azalda bildik. Başlanğıcda biz borc götürmək məcburiyyətində idik, lakin sonra strategiyamız borc götürməyi dayandırmaq və borcları ödəmək oldu ki, biz istənilən beynəlxalq maliyyə institutundan asılı olmayaq. Bu gün bizim xarici borcumuz dünyada ən aşağı xarici borclardandır və o, təqribən ümumi daxili məhsulun 6 faizindən çoxdur”.*** Dövlət başçısının qeyd etdiyi bu göstəricilər Azərbaycanın maliyyə dayanıqlılığının və məsuliyyətli iqtisadi siyasətinin nəticəsi olmaqla yanaşı, ölkənin investisiya cəlbediciliyini artıran mühüm amillərdən biridir. Güclü makroiqtisadi əsaslar, aşağı xarici borc yükü və sabit iqtisadi mühit xarici investorlar üçün əlverişli şərait yaradır, ölkəyə uzunmüddətli kapital qoyuluşlarını stimullaşdırır.

Prezident İlham Əliyevin rəhbərliyi ilə respublikamızda investisiya mühitinin yaxşılaşdırılması istiqamətində aparılan islahatlar son illərdə daha da intensivləşib. Vergi inzibatçılığının sadələşdirilməsi, elektron xidmətlərin genişləndirilməsi, biznesin qeydiyyatı prosedurlarının asanlaşdırılması, gömrük sistemində rəqəmsal həllərin tətbiqi və sahibkarların hüquqlarının müdafiəsi istiqamətində atılan addımlar ölkənin investisiya cəlbediciliyini artırıb. Dövlət xidmətlərinin əksəriyyətinin elektronlaşdırılması investorların vaxt və maliyyə xərclərini əhəmiyyətli dərəcədə azaldır və biznes fəaliyyətinin səmərəliliyini yüksəldir. Hazırda Azərbaycan iqtisadiyyatında özəl sektorun rolu davamlı şəkildə artır. Ümumi daxili məhsulun böyük qismi, məşğul əhalinin əksəriyyəti və qeyri-neft ixracının mühüm hissəsi məhz özəl sektorun payına düşür.

Eyni zamanda ötən ilin sonuna olan məlumata görə, dövlət-özəl tərəfdaşlıq mexanizmləri və aparılan islahatlar nəticəsində özəl sektorun iqtisadiyyatda payı 81,4 faiz səviyyəsindədir. 2025-ci ildə qeyri-neft sektoru daha da genişlənib. Qeyri-neft sektorunda ümumi daxili məhsul 92,3 milyard manata çatıb. 2024-cü illə müqayisədə bu, 2,7 faizlik real artımdır. Sahibkarlığın inkişafına göstərilən dövlət dəstəyi, güzəştli maliyyələşdirmə proqramları, sənaye parkları və sənaye məhəllələrinin yaradılması, aqroparkların genişləndirilməsi, həmçinin investisiya təşviqi mexanizmlərinin tətbiqi yerli və xarici investorlar üçün əlverişli əməkdaşlıq imkanları formalaşdırır və Azərbaycanın regional investisiya mərkəzi kimi mövqeyini daha da gücləndirir.

Azərbaycanın əlverişli coğrafi mövqeyi də investisiya mühitinin mühüm üstünlüklərindən biridir. Ölkə Avropa və Asiyanın kəsişməsində yerləşərək Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin əsas iştirakçısı kimi çıxış edir. Bu mövqe Azərbaycanı beynəlxalq logistika və ticarət mərkəzlərindən birinə çevirir. Xüsusilə son illərdə Orta Dəhlizin əhəmiyyətinin artması fonunda Azərbaycanın tranzit potensialı daha da yüksəlib. Bakı-Tbilisi-Qars dəmir yolu, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, müasir avtomobil yolları və hava limanları ölkənin logistika imkanlarını əhəmiyyətli dərəcədə genişləndirib. Bu infrastrukturlar xarici investorların istehsal və ixracyönümlü layihələr həyata keçirməsi üçün əlverişli şərait yaradır. Bundan başqa, Azərbaycanın enerji sektoru da xarici investisiyalar üçün əsas istiqamətlərdən biri olaraq qalır. Ənənəvi neft-qaz layihələri ilə yanaşı, son illərdə “yaşıl enerji” sahəsində yeni əməkdaşlıq imkanları formalaşıb. Xəzər dənizinin külək enerjisi potensialı, günəş elektrik stansiyalarının tikintisi və “yaşıl enerji” layihələri beynəlxalq investorların diqqətini cəlb edir.

İnvestisiya mühitinin gücləndirilməsində sənaye parkları və iqtisadi zonalar mühüm rol oynayır. Ələt Azad İqtisadi Zonası, Sumqayıt Kimya Sənaye Parkı, Pirallahı Sənaye Parkı, “Araz Vadisi İqtisadi Zonası” Sənaye Parkı, Ağdam Sənaye Parkı və digər sənaye məkanlarında fəaliyyət göstərən rezidentlər üçün tətbiq edilən vergi və gömrük güzəştləri investisiya cəlbediciliyini əhəmiyyətli dərəcədə artırır. Bu yanaşma xarici investorların istehsal sahələrində iştirakını genişləndirir, yeni müəssisələrin yaradılmasını sürətləndirir və ixracyönümlü layihələrin həyata keçirilməsinə əlverişli imkanlar açır.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında aparılan bərpa və yenidənqurma işləri də investisiya baxımından yeni perspektivlər yaradır. Müasir şəhərsalma prinsipləri əsasında qurulan yaşayış məntəqələri, “ağıllı şəhər” və “ağıllı kənd” layihələri, “yaşıl enerji zonaları”nın yaradılması, yeni sənaye və kənd təsərrüfatı layihələri xarici investorların marağını artırır.

Azərbaycanın beynəlxalq iqtisadi əməkdaşlıq siyasəti də investisiya mühitinə müsbət təsir göstərir. Ölkəmiz bir çox dövlətlərlə investisiyaların qarşılıqlı qorunması və təşviqi haqqında sazişlər imzalayıb, beynəlxalq maliyyə institutları və transmilli şirkətlərlə uğurlu əməkdaşlıq qurub. Bu əməkdaşlıq xarici investorlar üçün hüquqi təminatları gücləndirir və investisiya risklərini minimuma endirir.

Son illərdə rəqəmsal iqtisadiyyatın inkişafı da xarici investisiyalar üçün yeni imkanlar yaradıb. Rəqəmsal hökumət xidmətləri, innovasiya ekosisteminin inkişafı, startap layihələrinin dəstəklənməsi və texnologiya yönümlü sahibkarlığın təşviqi Azərbaycanın regionda innovativ iqtisadiyyat quruculuğu istiqamətində mühüm addımlar atdığını göstərir. Bu proses yüksək texnologiyalar və rəqəmsal xidmətlər sahəsində fəaliyyət göstərən xarici şirkətlərin ölkəyə marağını artırır. Bununla yanaşı, qlobal iqtisadiyyatda baş verən dəyişikliklər və beynəlxalq investisiya bazarlarında artan rəqabət investisiya mühitinin davamlı təkmilləşdirilməsini zəruri edir.




Ümumilikdə, onu vurğulamaq olar ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə son illərdə həyata keçirilən məqsədyönlü iqtisadi siyasət nəticəsində Azərbaycan regionun ən əlverişli investisiya məkanlarından birini çevrilib. Siyasi və makroiqtisadi sabitlik, güclü infrastruktur, əlverişli coğrafi mövqe, müasir logistika imkanları, hüquqi təminatlar, sahibkarlığın dəstəklənməsi, “yaşıl enerji” və rəqəmsal iqtisadiyyat sahələrində yaradılan yeni imkanlar xarici investorların özəl sektora marağını davamlı şəkildə artırır. Xarici investisiyaların artması isə, öz növbəsində, iqtisadiyyatın şaxələndirilməsinə, qeyri-neft sektorunun inkişafına, ixrac potensialının genişlənməsinə, yeni iş yerlərinin yaradılmasına və Azərbaycanın regional iqtisadi mərkəz kimi mövqeyinin daha da möhkəmlənməsinə xidmət edir. Mövcud inkişaf tempi göstərir ki, ölkədə formalaşmış unikal investisiya mühiti yaxın illərdə xarici investorlar üçün cəlbediciliyini daha da artıracaq və özəl sektorun inkişafında mühüm hərəkətverici qüvvə olaraq qalacaq.

**Nail ƏSGƏROV**

# Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə **qərara alıram:**

1. "Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin strukturu" təsdiq edilsin.

2. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin işçilərinin say həddi 55 ştat vahidi müəyyən edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

4. Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 dekabr tarixli 1917 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 12, maddə 1427 (Cild I) ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

4.1. 1-ci hissə üzrə:

4.1.1. 1.1-ci bənddə "ərazisində (bundan sonra – müvafiq ərazi)" sözləri "Konstitusiyası və" sözləri ilə, "Azərbaycan Respublikası Prezidenti Administrasiyasının struktur bölməsidir" sözləri "və Naxçıvan Muxtar Respublikasının ərazisində (bundan sonra – müvafiq ərazi) Azərbaycan Respublikası Prezidentinin fəaliyyətini təmin edən 1-ci kateqoriya dövlət orqanıdır" sözləri ilə əvəz edilsin;

4.1.2. 1.2-ci bəndə "qanunlarını," sözündən sonra "bu Əsasnaməni," sözləri əlavə olunsun və həmin bənddə "fərman və sərəncamlarını, bu Əsasnaməni" sözləri "digər fərmanlarını, həmçinin sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını" sözləri ilə əvəz edilsin;

4.1.3. 1.3-cü bənddə "dövlət orqanları (qurumları) ilə" sözləri "digər dövlət orqanları (qurumları), yerli özünüidarəetmə orqanları, beynəlxalq və qeyri-hökumət təşkilatları ilə, habelə digər hüquqi və fiziki şəxslərlə" sözləri ilə əvəz edilsin;

4.1.4. aşağıdakı məzmunda 1.3-1-ci və 1.3-2-ci bəndlər əlavə edilsin:

"1.3-1. Səlahiyyətli nümayəndəliyin müstəqil balansı, istifadəsində olan dövlət əmlakı, xəzinə və bank hesabları, üzərində Azərbaycan Respublikası Dövlət Gerbinin təsviri və öz adı həkk olunmuş möhürü, kargüzarlıq xidmətinin gerbsiz möhürü, müvafiq ştampları və blankları vardır.

1.3-2. Səlahiyyətli nümayəndəliyin saxlanma xərcləri və fəaliyyəti, habelə maddi-texniki təminatı Azərbaycan Respublikasının dövlət büdcəsi və qanunda nəzərdə tutulan digər mənbələr hesabına maliyyələşdirilir.";

4.2. 2-ci hissə üzrə:

4.2.1. 2.1.1-ci yarımbənddə "fəaliyyətini əlaqələndirmək və onların" sözləri ", habelə bu Əsasnamənin 3.1.1-3-cü və 3.1.1-4-cü yarımbəndlərində nəzərdə tutulan dövlət orqanlarının (qurumlarının) fəaliyyətini əlaqələndirmək və yerli icra hakimiyyəti orqanlarının" sözləri ilə əvəz edilsin;

4.2.2. aşağıdakı məzmunda 2.1.1-1-ci yarımbənd əlavə edilsin:

"2.1.1-1. müvafiq ərazidə Azərbaycan Respublikası Prezidentinin Azərbaycan Respublikasının Konstitusiyasından, Naxçıvan Muxtar Respublikasının Konstitusiyasından, Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının qanunlarından və digər normativ hüquqi aktlardan irəli gələn səlahiyyətlərinin həyata keçirilməsini təmin etmək;";

4.3. 3-cü hissə üzrə:

4.3.1. 3.1-ci bənd üzrə:

4.3.1.1. aşağıdakı məzmunda 3.1.1-1–3.1.1-6-cı yarımbəndlər əlavə edilsin:

"3.1.1-1. aşağıdakı məsələlər barədə Azərbaycan Respublikasının Prezidentinə təkliflər vermək:

3.1.1-1.1. Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında nəzərdə tutulmuş hallarda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin (bundan sonra – Ali Məclis) Azərbaycan Respublikasının Prezidenti tərəfindən buraxılması;

3.1.1-1.2. Ali Məclisin növbədənkənar sessiyasının çağırılması, habelə Ali Məclis sessiyasının qapalı iclasının keçirilməsi;

3.1.1-1.3. Azərbaycan Respublikası Prezidentinin aktları ilə Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti üçün əlavə səlahiyyətlərin müəyyən edilməsi;

3.1.1-1.4. bu Əsasnamənin 3.1.1-3-cü və 3.1.1-4-cü yarımbəndlərində nəzərdə tutulan dövlət orqanlarının (qurumlarının) fəaliyyətinin təkmilləşdirilməsi;

3.1.1-2. aşağıdakı məsələlərə dair Ali Məclis sədrinin təkliflərinin Azərbaycan Respublikasının Prezidentinə təqdim edilməsi ilə bağlı tədbirlər görmək:

3.1.1-2.1. Ali Məclisə seçkilərin təyin edilməsi;

3.1.1-2.2. Naxçıvan Muxtar Respublikasının dövlət orqanlarında qulluq (xidmət) keçən şəxslərə ixtisas dərəcələrinin və ali xüsusi rütbələrin verilməsi;

3.1.1-2.3. Azərbaycan Respublikasının dövlət təltifləri ilə təltifetmə;

3.1.1-3. Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarının, tabelikdə olmayan publik hüquqi şəxslərinin və dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərinin rəhbərlərinin və onların müavinlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi barədə Naxçıvan Muxtar Respublikasının Baş nazirinə razılıq verilməsi;

3.1.1-4. Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırılan hallar istisna olmaqla, Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarının və tabelikdə olmayan publik hüquqi şəxslərinin Naxçıvan Muxtar Respublikasındakı struktur bölmələri rəhbərlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsinə razılıq verilməsi;

3.1.1-5. aşağıdakı məsələlərin həyata keçirilməsinin təmin edilməsi üçün tədbirlər görmək:

3.1.1-5.1. Naxçıvan Muxtar Respublikası Baş nazirinin vəzifəyə təyin olunması barədə Azərbaycan Respublikası Prezidentinin təqdimatının Ali Məclisin sədrinə təqdim edilməsi;

3.1.1-5.2. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti tərəfindən mərkəzi icra hakimiyyəti orqanlarının yaradılmasına və ləğv edilməsinə dair, habelə Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin istefasına dair Azərbaycan Respublikası Prezidentinin razılığının alınması;

3.1.1-5.3. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin iş qaydasının Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırılması;

3.1.1-5.4. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin tərkibinə dair Naxçıvan Muxtar Respublikasının Baş nazirinə təkliflər verilməsi;

3.1.1-5.5. müvafiq ərazidə fəaliyyət göstərən yerli icra hakimiyyətləri başçılarının vəzifəyə təyin edilməsinə dair Ali Məclis sədrinin təqdimatının Azərbaycan Respublikasının Prezidentinə təqdim edilməsi;

3.1.1-5.6. Ali Məclisin növbədənkənar sessiyasının çağırılmasına dair Azərbaycan Respublikası Prezidentinin Ali Məclisə təqdim edilməsi;

3.1.1-5.7. Ali Məclis sessiyasının qapalı iclasının keçirilməsinə dair Azərbaycan Respublikası Prezidentinin təklifinin Ali Məclisə təqdim edilməsi;

3.1.1-6. müvafiq ərazidə Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi digər səlahiyyətlərin həyata keçirilməsinin təmin edilməsi üçün tədbirlər görmək;";

4.3.1.2. 3.1.3-cü yarımbənd aşağıdakı redaksiyada verilsin:

"3.1.3. müvafiq ərazinin sosial-iqtisadi inkişafı ilə bağlı dövlət proqramları, strategiyalar, milli fəaliyyət planları və konsepsiyaların layihələrinin, həmçinin dövlət investisiya proqramına daxil edilən investisiya layihələrinin hazırlanmasında iştirak etmək və onların icrasına nəzarəti həyata keçirmək;";

4.3.1.3. 3.1.8-ci və 3.1.10-cu yarımbəndlərə "orqanlarının" sözündən sonra ", habelə bu Əsasnamənin 3.1.1-3-cü və 3.1.1-4-cü yarımbəndlərində nəzərdə tutulan dövlət orqanlarının (qurumlarının)" sözləri əlavə edilsin;

4.3.1.4. aşağıdakı məzmunda 3.1.11-1 – 3.1.11-5-ci yarımbəndlər əlavə edilsin:

"3.1.11-1. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, rəsmi internet informasiya ehtiyatının yaradılmasını, malik olduğu və siyahısı "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin internet informasiya ehtiyatında yerləşdirilməsini və bu informasiyanın daim yenilənməsini təmin etmək;

3.1.11-2. səlahiyyətli nümayəndəliyə ayrılan büdcə vəsaitindən və digər maliyyə vəsaitindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

3.1.11-3. səlahiyyətli nümayəndəliyin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi üçün tədbirlər görmək;

3.1.11-4. müraciətlərə "Vətəndaşların müraciətləri haqqında", "İnzibati icraat haqqında" və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq baxmaq və qanunla müəyyən edilmiş qaydada tədbirlər görmək;

3.1.11-5. səlahiyyətli nümayəndəliyin işçilərinin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı tədbirlər görmək;";

4.3.1.5. 3.1.12-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"3.1.12. Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.";

4.3.2. 3.2-ci bənd üzrə:

4.3.2.1. aşağıdakı məzmunda 3.2.1-1-ci yarımbənd əlavə edilsin:

"3.2.1-1. yerli icra hakimiyyəti orqanlarının digər dövlət orqanları (qurumları) ilə qarşılıqlı fəaliyyətini təmin etmək;";

4.3.2.2. 3.2.3-cü yarımbənddə "müvəqqəti olmadıqda" sözləri "məzuniyyətdə və ya ezamiyyətdə olduqda, xəstəliyi və ya digər səbəblərlə əlaqədar öz səlahiyyətlərini icra edə bilmədikdə" sözləri ilə əvəz edilsin və həmin yarımbənddən "müəyyən etdiyi" sözləri çıxarılsın;

4.3.2.3. 3.2.6-cı yarımbənddə "aktların layihələrinə dair təkliflər vermək" sözləri "akt layihələrinin hazırlanmasında iştirak etmək" sözləri ilə əvəz edilsin;

4.3.2.4. 3.2.7-ci yarımbənddə "təhlillər" sözü "fəaliyyət istiqamətlərinə uyğun təhlillər və ümumiləşdirmələr" sözləri ilə əvəz edilsin;

4.3.2.5. aşağıdakı məzmunda 3.2.7-1-ci və 3.2.7-2-ci yarımbəndlər əlavə edilsin:

"3.2.7-1. müvafiq ərazidə dövlət–özəl tərəfdaşlığının inkişafı üçün tədbirlər görmək;

3.2.7-2. müvafiq ərazinin davamlı sosial-iqtisadi inkişafını təmin etmək məqsədilə dövlət orqanlarına (qurumlarına) təklif və tövsiyələr vermək;";

4.3.2.6. 3.2.8-ci yarımbənddə "səlahiyyətlərinə aid olan məsələlərlə bağlı" sözləri "fəaliyyət istiqamətlərinə aid məsələlərə dair" sözləri ilə əvəz edilsin;

4.3.2.7. 3.2.9-cu yarımbənd aşağıdakı redaksiyada verilsin:

"3.2.9. forum, konfrans, müşavirə, sərgi və digər tədbirlərdə, habelə beynəlxalq tədbirlərdə iştirak etmək və belə tədbirlərin keçirilməsini təşkil etmək;";

4.3.2.8. aşağıdakı məzmunda 3.2.9-1-ci və 3.2.9-2-ci yarımbəndlər əlavə edilsin:

"3.2.9-1. müstəqil ekspertləri və mütəxəssisləri, məsləhətçi təşkilatları öz fəaliyyətinə cəlb etmək, işçi qruplar yaratmaq;

3.2.9-2. istifadəsində olan dövlət əmlakı üzərində normativ hüquqi aktlarla müəyyən olunmuş hüquqlardan istifadə etmək;";

4.3.2.9. 3.2.10-cu yarımbənd aşağıdakı redaksiyada verilsin:

"3.2.10. Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.";

4.4. 4-cü hissə üzrə:

4.4.1. 4.4-cü və 4.5-ci bəndlər ləğv edilsin;

4.4.2. aşağıdakı məzmunda 4.6-cı bənd əlavə edilsin:

"4.6. Səlahiyyətli nümayəndə:

4.6.1. səlahiyyətli nümayəndəliyin fəaliyyətini təşkil edir və rəhbərlik edir;

4.6.2. səlahiyyətli nümayəndəliyin fəaliyyəti barədə Azərbaycan Respublikasının Prezidentinə hesabat verir;

4.6.3. müavinləri arasında vəzifə bölgüsü aparır;

4.6.4. səlahiyyətli nümayəndəliyin strukturu və işçilərinin say həddi barədə Azərbaycan Respublikasının Prezidentinə təkliflər verir;

4.6.5. müəyyən edilmiş struktur, əməyin ödənişi fondu və işçilərinin say həddi daxilində səlahiyyətli nümayəndəliyin ştat cədvəlini təsdiq edir;

4.6.6. səlahiyyətli nümayəndəliyin struktur bölmələrinin əsasnamələrini və işçilərinin vəzifə təlimatlarını təsdiq edir;

4.6.7. dövlət büdcəsindən ayrılan vəsaitin sərəncamçısı olmaqla, maliyyə vəsaitini bölüşdürür, ayrılmış vəsaitin həddi nəzərə alınmaqla işçilərin vəzifə maaşlarına qanunla müəyyən olunan əlavələrin və digər ödənişlərin verilməsini təmin edir;

4.6.8. səlahiyyətli nümayəndəliyi təmsil edir;

4.6.9. müavinlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim edir;

4.6.10. bu Əsasnamənin 4.3-cü bəndi nəzərə alınmaqla, səlahiyyətli nümayəndəliyin işçilərini vəzifəyə təyin və vəzifədən azad edir, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görür;

4.6.11. səlahiyyətli nümayəndəliyin işçilərinə dövlət qulluğunun baş müşaviri və ondan aşağı olan ixtisas dərəcələri verir, habelə xüsusi fərqlənmiş əməkdaşlara Azərbaycan Respublikasının fəxri adlarının verilməsi və ya onların dövlət mükafatları ilə təltif olunması üçün Azərbaycan Respublikasının Prezidentinə təqdimat verir;

4.6.12. səlahiyyətli nümayəndəlikdə dövlət sirrinin və məxfilik rejiminin qorunması ilə bağlı qanunvericiliyin tələblərinə, etik davranış qaydalarına, əmək və icra intizamına riayət olunmasına nəzarət edir;

4.6.13. əmr və sərəncamlar formasında qeyri-normativ hüquqi aktlar qəbul edir və onların icrasını təşkil edir, yoxlayır və buna nəzarəti həyata keçirir;

4.6.14. Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər səlahiyyətləri həyata keçirir.".

5. Bu Fərman 2026-cı il iyulun 1-dən qüvvəyə minir.

**İlham ƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 29 iyun 2026-cı il*

## “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2026-cı il 19 iyun tarixli 425-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2026-cı il 19 iyun tarixli 425-VIIQD nömrəli Qanununun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 4 avqust tarixli 911 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 8, maddə 440 (Cild I); 2024, № 5 (I kitab), maddə 526; 2025, № 5, maddə 444, № 9, maddə 817; 2026, № 3, maddə 228, № 4, maddə 315) ilə təsdiq edilmiş “İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusu”nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.9.9-5-ci və 1.9.11-1-ci yarımbəndlər ləğv edilsin;

1.2. 2-ci hissə üzrə:

1.2.1. 2.1.2.7-ci və 2.1.2.16-cı abzaslar ləğv edilsin;

1.2.2. aşağıdakı məzmunda 2.1.3.10-1-ci abzas əlavə edilsin:

“2.1.3.10-1. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyində şöbə müdiri;”;

1.2.3. 2.1.4.2-ci abzas ləğv edilsin;

1.2.4. aşağıdakı məzmunda 2.1.4.19-1-ci abzas əlavə edilsin:

“2.1.4.19-1. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyində şöbə müdirinin müavini;”;

1.2.5. 2.1.4.21-ci abzasa “köməkçiləri” sözündən sonra “, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin köməkçisi;” sözləri əlavə edilsin;

1.2.6. aşağıdakı məzmunda 2.1.5.1-1-ci abzas əlavə edilsin:

“2.1.5.1-1. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyində sektor müdiri, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi;”.

2. “Azərbaycan Respublikasının bəzi dövlət orqanlarının rəhbər işçilərinə yeni vəzifə maaşlarının müəyyən edilməsi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 19 mart tarixli 625 nömrəli Fərmanına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2026, № 3, maddə 229) aşağıdakı məzmunda 1.3-1-ci və 1.6-1-ci bəndlər əlavə edilsin:

“1.3-1. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi 14850 manat”;

“1.6-1. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini 12650 manat”.

3. Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 19 mart tarixli 626 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2026, № 3, maddə 230) ilə təsdiq edilmiş “Dövlət qulluğunun inzibati və yardımçı vəzifələri üzrə əməyin ödəniş səviyyələri”ndə aşağıdakı dəyişikliklər edilsin:

3.1. 1.4.4-cü yarımbənddən “Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi,” sözləri çıxarılsın;

3.2. 1.5.4-cü yarımbənddən “Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini,” sözləri çıxarılsın;

3.3. 1.7.2-ci yarımbənddən “Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyində,” sözləri çıxarılsın;

3.4. 1.8-ci bənd üzrə:

3.4.1. 1.8.2-ci yarımbənddən “Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyində,” sözləri çıxarılsın;

3.4.2. 1.8.8-ci yarımbəndə “aparatlarında” sözündən sonra “, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyində” sözləri əlavə edilsin;

3.5. 1.9.2-ci yarımbənddən “Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyində,” sözləri çıxarılsın;

3.6. 1.10-cu bənd üzrə:

3.6.1. 1.10.2-ci yarımbənddən “Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyində,” sözləri çıxarılsın;

3.6.2. aşağıdakı məzmunda 1.10.17-ci yarımbənd əlavə edilsin:

“1.10.17. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin köməkçisi;”;

3.7. 1.11-ci bənd üzrə:

3.7.1. 1.11.2-ci yarımbənddən “Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyində,” sözləri çıxarılsın;

3.7.2. 1.11.8-ci yarımbəndə “Aparatında” sözündən sonra “və Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyində” sözləri əlavə edilsin;

3.8. 1.15.2-ci yarımbəndə “Aparatında” sözündən sonra “və Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyində” sözləri əlavə edilsin;

3.9. 1.16.2-ci, 1.17.2-ci, 1.18.2-ci, 1.19.2-ci, 2.6.3-cü, 2.7.3-cü, 2.8.3-cü və 2.9.3-cü yarımbəndlərə “Aparatında” sözündən sonra “və Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyində” sözləri əlavə edilsin.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2026-cı il 19 iyun tarixli 425-VIIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

5. Bu Fərman 2026-cı il iyulun 1-dən qüvvəyə minir.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 29 iyun 2026-cı il*

## “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 19-cu bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 1, maddə 1 (Cild I); 2024, № 5 (I kitab), maddə 489, № 7, maddə 748, № 8, maddə 934; 2025, № 2, maddə 96, № 6, maddə 539, № 7, maddə 606, № 12 (I kitab), maddə 1123; 2026, № 1, maddə 15, № 3, maddə 210) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2.2-ci maddəyə dördüncü halda “müavinlərinə” sözündən sonra “, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinə və onun müavinlərinə” sözləri əlavə edilsin;

1.2. 8.1.2-ci maddəyə “orqanı” sözündən sonra “, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi” sözləri əlavə edilsin;

1.3. 11.1-ci maddə üzrə:

1.3.1. 11.1.2.5-ci, 11.1.2.12-ci və 11.1.4.2-ci maddələr ləğv edilsin;

1.3.2. aşağıdakı məzmunda 11.1.4.16-1-ci maddə əlavə edilsin:

“11.1.4.16-1. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin köməkçisi;”;

1.4. 33-4-cü maddənin “Qeyd” hissəsinə ikinci halda “müavinləri” sözündən sonra “, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi və onun müavinləri” sözləri əlavə edilsin.

**Maddə 2.** Bu Qanun 2026-cı il iyulun 1-dən qüvvəyə minir.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 19 iyun 2026-cı il*

## Ali Məclis sədrinin müavini Arzu Abdullayev Norveçin Oslo şəhərində Avropa Şurası Konqresinin Monitorinq Komitəsinin iclasında iştirak edib



Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini, Avropa Şurasının Yerli və Regional Hakimiyyətlər Konqresinin Monitorinq Komitəsinin üzvü Arzu Abdullayev Komitənin Norveçin Oslo şəhərində keçirilən 29-30 iyun tarixli iclasında iştirak edib.

İclasda Konqresin baş katibi Ümumdünya Şəhərsalma Forumunun (WUF) 13-cü sessiyası fonunda Azərbaycana səfəri zamanı Azərbaycan nümayəndə heyəti ilə görüşü vurğulayıb və tərəflər arasında mümkün əməkdaşlıq istiqamətlərinin müzakirəsini qeyd edib. Baş katib bu görüşün qarşılıqlı əməkdaşlığın daha da şaxələndirilməsi baxımından önəmini qeyd edərək görüşün təşkili ilə bağlı ABMA-ya və Azərbaycan nümayəndə heyətinin rəhbərinə öz təşəkkürünü bildirib. Komitə gündəlikdəki məsələlərin müzakirəsinə keçməzdən əvvəl demokratik təhlükəsizliyin əsası kimi yerli və regional səviyyədə demokratik hazırlıq ilə bağlı Oslo bəyannaməsini qəbul edib.

İclasda bir sıra məsələlərlə bağlı hesabatlar dinlənilib, tövsiyə, qətnamə layihələri, qərarlar qəbul edilib. Sonda Komitənin 2026-2027-ci illər üzrə iş planı müzakirə olunaraq qəbul olunub.

Azərbaycan nümayəndə heyətinin üzvləri, həmçinin 29 iyun tarixində “Yerli və regional səviyyələrdə demokratik hazırlıq” mövzusunda baş tutan seminarda iştirak edib.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvanda yeni tekstil istehsalı müəssisəsi istifadəyə verilib



İyunun 30-da Naxçıvan şəhərində “GB GROUP” MMC-nin yeni tekstil istehsalı müəssisəsinin açılış mərasimi keçirilib. Tədbir Azərbaycan və Türkiyənin Dövlət himnlərinin səsləndirilməsi, Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad olunması ilə başlayıb.

Açılış mərasimində Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Kazım Hüseynəliyev, əmək və əhalinin sosial müdafiəsi naziri Fərid Bağırzadə, Türkiyənin Naxçıvandakı Baş konsulu Asip Kaya, eləcə də dövlət qurumlarının nümayəndələri və muxtar respublikada fəaliyyət göstərən sahibkarlar iştirak ediblər.

Tədbirdə çıxış edənlər Prezident İlham Əliyevin Naxçıvan Muxtar Respublikasında sahibkarlığın inkişafına göstərdiyi diqqət və dəstəyin nəticəsi olaraq bu gün muxtar respublikada özəl sektorun inkişaf etdiyini, yeni iş yerlərinin yaradıldığını və sahibkarlıq mühitinin daha da təkmilləşdirildiyini bildiriblər.

Qeyd olunub ki, cari ilin 1 yanvarından tətbiq olunan vergi, gömrük və sosial sığorta güzəştləri muxtar respublikada sahibkarların maliyyə yükünü əhəmiyyətli dərəcədə azaldır, istehsalın genişləndirilməsini, müasir texnologiyaların tətbiqini və rəqabətqabiliyyətli məhsul istehsalını təşviq edir.

Azərbaycan Respublikası Prezidentinin 9 iyun 2026-cı il tarixli “Qeyri-neft-qaz mallarının ixracının stimullaşdırılması və daşıma xərclərinin dəstəklənməsi ilə bağlı əlavə tədbirlər haqqında” Fərmanının qeyri-neft məhsullarının ixrac potensialının artırılmasına, logistika xərclərinin azaldılmasına və sahibkarlığa göstərilən dövlət dəstəyinin daha da genişləndirilməsinə xidmət etməklə yanaşı, Naxçıvanda istehsal olunan məhsulların ölkənin digər ərazilərinə daşınmasına əlavə dəstək imkanları yaratdığı ifadə olunub.

Çıxışlarda, həmçinin tekstil sənayesinin qadın məşğulluğunun artırılmasında mühüm rol oynadığı, layihədə Türkiyədən olan investorun iştirakının Naxçıvanın xarici investisiyalar üçün cəlbedici məkan olduğunu bir daha təsdiqlədiyi qeyd edilib və müəssisənin kollektivinə gələcək fəaliyyətlərində uğurlar arzulanıb.

Məlumat verilib ki, 2025-ci ilin dekabr ayında verilmiş investisiya təşviqi sənədi çərçivəsində müəssisəyə 4 təsdiqedici sənəd təqdim olunub. Bunun hesabına Çin və Türkiyədən müasir istehsal avadanlıqları, xammal və materiallar ƏDV və gömrük rüsumlarından azad şəkildə idxal edilib.

Müəssisədə ilkin mərhələdə 100-ə yaxın daimi iş yeri yaradılıb. Burada istehsal olunacaq tekstil məhsullarının ölkədaxili bazarda satışı ilə yanaşı, xarici bazarlara da ixrac olunması nəzərdə tutulur.





# "Türk Dünyası Həftəsi":

## Bakı yüz ildən sonra yenidən Türk dünyasının gələcəyinə işıq tutur

***İyunun 29-dan etibarən Bakı növbəti dəfə Türk dünyasının elm, mədəniyyət və ortaq dəyərlər ətrafında birliyinin mərkəzinə çevrilib. Heydər Əliyev Mərkəzində Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr olunmuş "Türk Dünyası Həftəsi"nə start verilib. Elm və mədəniyyətlə bağlı silsilə tədbirlərdən ibarət həftə Prezident İlham Əliyevin "Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin keçirilməsi haqqında" 2025-ci il 22 oktyabr tarixli Sərəncamına uyğun olaraq təşkil olunub. İyulun 3-dək davam edən "Türk Dünyası Həftəsi" Mədəniyyət Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası (AMEA), Elm və Təhsil Nazirliyinin birgə təşkilatçılığı, Türk Dövlətləri Təşkilatı, TÜRKSOY, Bakı Dövlət Universiteti, Türk Akademiyası, Türk Mədəniyyəti və İrsi Fondunun tərəfdaşlığı ilə keçirilib. Tədbirdə türk respublikaları daxil olmaqla, ümumilikdə, 20 ölkənin müxtəlif elmi mərkəzlərindən 80 tanınmış türkoloq-alim, eləcə də türk beynəlxalq təşkilatlarından nümayəndələr iştirak edir. Bir əsr əvvəl Bakıda əsası qoyulan türkoloji əməkdaşlıq ənənələrinin davamı olan bu tədbir türk dövlətləri arasında elmi, mədəni və mənəvi əlaqələrin daha da möhkəmləndirilməsinə töhfə verir. Bu baxımdan, Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin qeyd olunması təkcə dünya türkologiyasının ən mühüm elmi hadisələrindən birinin xatırlanması deyil, həm də türk xalqlarının ortaq tarixi yaddaşına, mədəni irsinə və gələcək inkişaf strategiyasına verilən yüksək dəyərin ifadəsidir. "Türk Dünyası Həftəsi" çərçivəsində keçirilən yubiley tədbirləri bir əsr əvvəl Bakıda əsası qoyulan elmi və mənəvi həmrəyliyin bu gün də aktuallığın qoruduğunu, yeni geosiyasi reallıqlar fonunda daha da böyük əhəmiyyət qazandığını nümayiş etdirir.***

Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr olunan yubiley tədbirlərinin Azərbaycanın Türk Dövlətləri Təşkilatına (TDT) sədrliyi dövrünə təsadüf etməsi xüsusi siyasi və mənəvi məna daşıyır. Bu, Prezident İlham Əliyevin türk dövlətləri arasında əməkdaşlığın genişləndirilməsi, ortaq humanitar məkanın formalaşdırılması və ümumtürk dəyərlərinin qorunmasına yönəlmiş ardıcıl siyasətinin məntiqi davamıdır. Təsadüfi deyil ki, son illərdə Azərbaycan TDT-nin institusional inkişafı, iqtisadi, humanitar və mədəni inteqrasiyanın dərinləşdirilməsi istiqamətində mühüm təşəbbüslərlə çıxış edərək təşkilat daxilində aparıcı rolunu daha da möhkəmləndirib. Prezident İlham Əliyev Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr olunmuş "Türk Dünyası Həftəsi"nin iştirakçılarına müraciətində də qurultayın Türk dünyasının ictimai-siyasi, elmi və mədəni həyatında mühüm yer tutduğunu vurğulayaraq yubiley tədbirlərinin Azərbaycanın TDT-yə sədrliyi dövründə keçirilməsinin xüsusi rəmzi məna daşıdığını bildirib. Sitat: ***"Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin keçirilməsinə dair ötən ilin oktyabrında Qəbələdə Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşü zamanı irəli sürdüyüm təşəbbüsün bu gün reallaşması məmnunluq doğurur. Birinci Türkoloji Qurultayın 100 illik yubileyi ilə əlaqədar "Türk Dünyası Həftəsi"nin Azərbaycanın Türk Dövlətləri Təşkilatına sədrliyi dövrünə təsadüf etməsinin xüsusi rəmzi mənası vardır. Paytaxtımızın memarlıq incilərindən sayılan əzəmətli İsmailiyyə Sarayında dünya türkologiyasının görkəmli simalarını və məşhur tədqiqatçı alimlərini yüz il əvvəl bir araya toplamış Birinci Türkoloji Qurultay zəngin keçmişə və qədim irsə malik türk xalqlarının müvcud şəraitdə mədəni inteqrasiyasının məfkurə olaraq təşəkkül tapması baxımından müstəsna əhəmiyyət daşıyır".***

Bəli, yüz il bundan öncə – 1926-cı ildə Bakıda keçirilən Birinci Türkoloji Qurultay türk xalqlarının elmi fikir tarixində yeni mərhələnin başlanğıcı hesab olunur. Həmin dövrdə dünyanın müxtəlif ölkələrindən gəlmiş yüzlərlə alim, dilçi və tədqiqatçının iştirakı ilə keçirilən qurultay türk xalqlarının ortaq dil, əlifba, tarix, ədəbiyyat, etnoqrafiya və mədəniyyət məsələlərinin sistemli şəkildə müzakirə olunduğu ilk beynəlxalq platformaya çevrildi. Qurultayda səsləndirilən ideyalar yalnız elmi müzakirə xarakteri daşımır, eyni zamanda türk xalqlarının gələcək inkişafı üçün strateji yol xəritəsi rolunu oynayırdı. Tədbirin Bakıda keçirilməsi də tarixi zərurətdən irəli gəlirdi. Belə ki, XIX əsrin ikinci yarısından etibarən Azərbaycanda milli oyanış prosesinin sürətlənməsi, yenitipli məktəblərin, teatrın və milli mətbuatın yaranması ölkəni müsəlman Şərqinin aparıcı maarifçilik mərkəzlərindən birinə çevirmişdi. Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması isə milli dövlətçilik ənənələrinin formalaşmasına mühüm töhfə vermiş, Bakı şəhəri regionun ən güclü elmi və intellektual mərkəzlərindən biri kimi tanınmışdı. Belə bir mühit Birinci Türkoloji Qurultayın məhz Azərbaycanda keçirilməsini şərtləndirən əsas amillərdən idi.

Qurultayda qəbul edilən qərarlar arasında vahid ümumtürk əlifbasına keçid məsələsi xüsusi yer tuturdu. Bu təşəbbüs türk xalqları arasında elmi, mədəni və informasiya əlaqələrinin genişləndirilməsinə, ortaq kimliyin möhkəmlənməsinə xidmət edirdi. Eyni zamanda dilin qorunması, tarixi irsin öyrənilməsi, folklorun toplanması və ortaq mədəni dəyərlərin gələcək nəsillərə ötürülməsi istiqamətində mühüm qərarlar qəbul edilmişdi. Lakin bu mütərəqqi ideyaların həyata keçirilməsi uzun sürmədi. Sovet totalitar rejimi türk xalqları arasında inteqrasiyanın güclənməsini öz siyasi maraqlarına təhlükə hesab edərək qurultayın ideyalarının reallaşmasına müxtəlif yollarla mane oldu. Qurultay iştirakçılarının böyük əksəriyyəti repressiyalara məruz qaldı, bir çox görkəmli alim və ziyalı həyatını itirdi. Bununla belə, onların irsi və ideyaları yaddaşlardan silinmədi, əksinə, sonrakı nəsillər üçün milli düşüncənin və elmi irsin ayrılmaz hissəsinə çevrildi. Prezident İlham Əliyev Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr olunmuş "Türk Dünyası Həftəsi"nin iştirakçılarına müraciətində də bütün bu tarixi məqamlara toxundu: ***"Türk dünyasının ortaq mənəvi dəyərlərinin – dil, tarix, etnoqrafiya, ədəbiyyat və mədəniyyətin inkişafı və gələcəyi ilə bağlı vacib məsələlərin, xüsusən vahid ümumtürk əlifbasına keçilməsinin diqqət mərkəzində saxlanıldığı beynəlxalq miqyaslı bu unikal elmi-mədəni forumun o zaman məhz Azərbaycanda keçirilməsi təsadüfi deyildi. Azərbaycan XIX əsrdən etibarən köklü ictimai-siyasi və mədəni dəyişikliklər nəticəsində yenitipli teatr, məktəb və ilk milli mətbu orqanı yaratmaqla milli özünüdərkin gerçəkləşməsinə zəmin hazırlamış, müsəlman və Türk dünyasında artıq ilk demokratik dövlət qurmuşdu. Paytaxt Bakı şəhəri də hələ ötən əsrin əvvəllərindən özünün milli ruhlu ziyalılar nəslindən ibarət intellektual mühitinin yüksək səviyyəsi ilə seçilərək dünya türkologiyasının mötəbər mərkəzlərindən biri kimi tanınırdı. Əfsuslar olsun ki, Birinci Türkoloji Qurultayda səslənən başlıca fikir və müddəaların həyata keçirilməsinin qarşısı az sonra sovet totalitar idarə üsulu tərəfindən düşünülmüş formada süni maneələrlə alındı. Qurultay nümayəndələrinin əksəriyyətini isə məqsədli şəkildə 1930-cu illərdə amansız repressiyalara məruz qoydular. Onların xatirəsini bu gün də ehtiramla yad edirik".***

XX əsrin sonlarında türk dövlətlərinin müstəqillik qazanması ilə Birinci Türkoloji Qurultayın bir əsr əvvəl irəli sürdüyü ideyalar yenidən aktuallıq qazandı. Qurultayda əsası qoyulan ortaq dil, əlifba, elm və mədəni əməkdaşlıq prinsipləri müasir dövrdə Türk dünyasının inteqrasiya prosesinin əsas istiqamətlərindən birinə çevrilib. Türk dövlətləri arasında siyasi dialoqun dərinləşməsi, iqtisadi və humanitar əməkdaşlığın genişlənməsi, ortaq layihələrin həyata keçirilməsi, vahid türk əlifbası istiqamətində atılan addımlar, eləcə də ortaq tarix və mədəni irsin araşdırılması həmin ideyaların artıq praktik müstəvidə gerçəkləşdiyini nümayiş etdirir.

Son illərdə TDT çərçivəsində təhsil, elm, mədəniyyət, gənclər siyasəti, media və informasiya sahələrində həyata keçirilən çoxsaylı layihələr ortaq humanitar məkanın formalaşmasına mühüm töhfə verir. Bu təşəbbüslər türk xalqları arasında qarşılıqlı etimadı, həmrəyliyi və mənəvi bağları daha da gücləndirir. Beləliklə də, Birinci Türkoloji Qurultayın zəngin ideya irsi bu gün də təşkilatın fəaliyyətinin mənəvi və tarixi dayaqlarından biri kimi öz əhəmiyyətini qoruyub saxlayır.

Prezident İlham Əliyevin çıxışlarında da qeyd etdiyi kimi, müasir dövrdə beynəlxalq münasibətlər sistemində baş verən sürətli dəyişikliklər fonunda Türk dünyasının birliyi və həmrəyliyi daha da strateji məna kəsb edir. Məhz bu baxımdan, ortaq tarixə, dilə, mədəniyyətə və mənəvi dəyərlərə malik türk xalqları əməkdaşlığı dərinləşdirməklə regional və qlobal proseslərdə mövqelərini daha da gücləndirirlər. Bu prosesdə Azərbaycan fəal təşəbbüsləri, irəli sürdüyü layihələr və təşkilatçılıq missiyası ilə Türk dünyasının inteqrasiyasında aparıcı rol oynayır. Birinci Türkoloji Qurultayın 100 illiyinin ölkəmizdə yüksək səviyyədə qeyd edilməsi də Azərbaycanın ortaq türk irsinə sadiqliyinin, türk xalqlarının birliyinə və gələcək inkişafına verdiyi strateji əhəmiyyətin bariz ifadəsidir.

Birinci Türkoloji Qurultayın 100 illik yubileyi bir əsr əvvəl Bakıda əsası qoyulan ideyaların bu gün də öz aktuallığını və həyatiliyini qoruduğunun təsdiqidir. Türkdilli ölkələrin dövlət başçılarının "Türk Dünyası Həftəsi"nin iştirakçılarına ünvanladıqları müraciətlərdə səsləndirilən fikirlər də ortaq tarixə, dilə, mədəniyyətə və mənəvi dəyərlərə söykənən birliyin gələcək inkişaf üçün əsas amillərdən biri olduğunu bir daha nümayiş etdirir. Bu müraciətlər türk dövlətlərinin ortaq siyasi iradəsini, elmi və humanitar əməkdaşlığın daha da dərinləşdirilməsi əzmini, Birinci Türkoloji Qurultayın irsinə verilən yüksək dəyəri aydın şəkildə ortaya qoyur. Bir əsr əvvəl Türk dünyasının gələcəyinə istiqamət verən Bakı bu gün də eyni missiyanı davam etdirərək ortaq dəyərlər ətrafında həmrəyliyin, elmi dialoqun və strateji əməkdaşlığın mərkəzi kimi çıxış edir. Bu baxımdan, Birinci Türkoloji Qurultayın zəngin irsi yalnız keçmişin qiymətli mirası deyil, həm də Türk dünyasının gələcəyinə işıq tutan mühüm mənəvi və ideoloji yol xəritəsi olaraq öz əhəmiyyətini qoruyur.

**"Şərq qapısı"**



# Azərbaycanın geoiqtisadi və geosiyasi gücünü göstərən strateji layihə

## BTQ: Avrasiyanın yeni nəqliyyat və logistika körpüsü

Qloballaşmanın sürətləndiyi müasir dövrdə beynəlxalq ticarət və iqtisadi əməkdaşlığın genişlənməsi etibarlı nəqliyyat dəhlizlərinin yaradılmasını daha da vacib edir. Təchizat zəncirlərində baş verən dəyişikliklər, yeni bazarlara çıxış imkanlarının artması və dövlətlərin iqtisadi təhlükəsizlik prioritetləri nəqliyyat infrastrukturunun strateji əhəmiyyətini daha da gücləndirir. Bu kontekstdə 2017-ci il oktyabrın 30-dan fəaliyyət göstərən Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu xətti yalnız regional bir layihə deyil, həm də Avrasiya məkanında iqtisadi və siyasi əlaqələrin inkişafına təsir göstərən mühüm geostrateji təşəbbüslərdən biri kimi çıxış edir. Azərbaycanın təşəbbüsü və maliyyə dəstəyi ilə reallaşdırılan bu layihə ötən bir neçə ildə ölkənin beynəlxalq nəqliyyat sistemində mövqeyini xeyli möhkəmləndirib. Prezident İlham Əliyevin 2017-ci il oktyabrın 30-da Bakı-Tbilisi-Qars dəmir yolunun açılışı münasibətilə Bakı Beynəlxalq Dəniz Ticarət Limanında təntənəli mərasimdə çıxışı zamanı dediyi kimi: ***"Bakı-Tbilisi-Qars dəmir yolu Avrasiyanın nəqliyyat xəritəsinin önəmli hissəsinə çevrilir. Bu yolun fəaliyyəti nəticəsində yol boyunca yerləşən ölkələr arasındakı ticarət dövriyyəsi və qarşılıqlı sərmayə qoyuluşu artacaq. Bu yoldan istifadə edən bütün ölkələr arasındakı əməkdaşlıq dərinləşəcək. Bu yol sabitliyə və təhlükəsizliyə xidmət göstərəcək. Bu yolun istifadəsi zamanı əminəm ki, turizmin inkişafı da geniş vüsət alacaq, turistlərin sayı artacaq. Təbii ki, Bakı-Tbilisi-Qars dəmir yolunun uğurlu fəaliyyəti ölkələrimizin geosiyasi əhəmiyyətini artıracaq və bizim üçün əlavə imkanlar yaradacaq".***

Ötən dövrdə beynəlxalq miqyasda baş verən siyasi və iqtisadi proseslər dövlət başçısının bu layihə ilə bağlı səsləndirdiyi fikirlərin nə qədər uzaqgörən olduğunu bir daha təsdiqləyir. Qlobal nəqliyyat marşrutlarının yenidən formalaşdığı, Avrasiya məkanında logistika rəqabətinin gücləndiyi bir şəraitdə Bakı-Tbilisi-Qars dəmir yolu strateji əhəmiyyətini daha da artırıb. Bu xətt Şərq-Qərb nəqliyyat bağlantılarının şaxələndirilməsinə, yüklərin daşınma müddətinin qısaldılmasına və region ölkələri arasında iqtisadi inteqrasiyanın dərinləşməsinə mühüm töhfə verməkdədir. Bakı-Tbilisi-Qars dəmir yolunun modernləşdirilməsi isə xəttin yükdaşıma qabiliyyətini əhəmiyyətli dərəcədə artıraraq Orta Dəhlizin rəqabət qabiliyyətini gücləndirir. Bu addım Azərbaycanın tranzit potensialının genişlənməsinə, Avropa ilə Asiya arasında yükdaşımalarının sürətlənməsinə və ölkənin beynəlxalq logistika mərkəzi kimi mövqeyinin daha da möhkəmlənməsinə mühüm töhfə verəcək.

2024-cü ildə ADY tərəfindən Orta Dəhlizin mühüm seqmentlərindən olan BTQ-nin imkanlarının artırılması məqsədilə xəttin Gürcüstan ərazisindən keçən 184 kilometrlik hissəsində modernləşdirmə işləri aparılıb. 5 mərhələdən ibarət layihə 13 dəmir yolu stansiyası, 55 körpü, 8 dartı yarımstansiyası, 320 bina və süni mühəndis qurğularını (körpü, yolötürücü, keçid və s.) əhatə edib. Layihə çərçivəsində 30,3 kilometr uzunluğunda yeni dəmir yolu xətti, təkər cütlərinin dəyişdirilməsi stansiyası, 153,1 kilometr uzunluğunda mövcud dəmir yolunun reabilitasiya və rekonstruksiyası üzrə işlər həyata keçirilib. Görülmüş işlər nəticəsində BTQ-nin illik yükötürmə qabiliyyəti 1 milyon tondan 5 milyon tona çatdırılıb, bu xətt Çin və Mərkəzi Asiyadan Avropaya doğru daha funksional quru marşrutlardan birinə çevrilib. Bu modernləşdirmə bir sıra mühüm strateji nəticələr vəd edir. Yükötürmə qabiliyyətinin 5 dəfə yüksəlməsi Orta Dəhliz üzrə daşımaların daha böyük həcmdə və sabit şəkildə həyata keçirilməsinə şərait yaradacaq. Texniki yenilənmələr gecikmələri azaldaraq marşrutun ümumi effektivliyini artıracaq. Eyni zamanda Çin-Mərkəzi Asiya-Avropa xəttində daha rəqabətli quru dəhliz formalaşacaq. Bütün bunlar Azərbaycanın regional logistika mərkəzi kimi mövqeyini daha da möhkəmləndirəcək. Təbii ki, artan yük axını tranzit gəlirlərini və əlaqəli infrastruktur sahələrinin inkişafını stimullaşdıracaq.

## Dəmir yolu Azərbaycanın tranzit potensialını gücləndirir

Bakı-Tbilisi-Qars dəmir yolu Azərbaycan, Gürcüstan və Türkiyə arasında birbaşa dəmir yolu əlaqəsi yaradaraq Avropa ilə Asiya arasında yeni və etibarlı nəqliyyat marşrutunun formalaşmasına imkan verib. Təxminən, 850 kilometrlik bu xətt qədim İpək Yolunun müasir dövrdə bərpasına xidmət etməklə yanaşı, qlobal ticarət marşrutlarının şaxələndirilməsinə mühüm töhfədir. Layihənin həyata keçirilməsi yükdaşımalarının sürətini artırır, logistika xərclərini azaldır və beynəlxalq ticarətin daha səmərəli təşkilinə şərait yaradır. Dəmir yolunun Azərbaycan üçün əsas üstünlüklərindən biri ölkənin tranzit potensialının daha da gücləndirilməsidir. Coğrafi baxımdan Avropa ilə Asiyanın kəsişməsində yerləşən Azərbaycan son illər həyata keçirdiyi nəqliyyat və logistika layihələri hesabına regionun əsas tranzit mərkəzlərindən birinə çevrilməkdədir. BTQ xətti bu strategiyanın mühüm tərkib hissəsi olmaqla ölkənin beynəlxalq yükdaşımalarında iştirakını genişləndirir, tranzit gəlirlərini artırır və qeyri-neft sektorunun inkişafına əlavə stimul verir. Bununla yanaşı, logistika mərkəzlərinin, sənaye parklarının və nəqliyyat infrastrukturunun inkişafı yeni investisiyaların cəlb edilməsinə və məşğulluğun artmasına da müsbət təsir göstərir.

Layihənin ən mühüm xüsusiyyətlərindən biri onun Orta Dəhlizin əsas komponentlərindən biri olmasıdır. Avropa ilə Asiya arasında yükdaşımalarının həyata keçirilməsində alternativ marşrutların əhəmiyyətinin artdığı bir dövrdə BTQ dəmir yolu xüsusi aktuallıq qazanıb. Xüsusilə son illərdə qlobal geosiyasi proseslər və bəzi ənənəvi nəqliyyat marşrutlarında yaranan çətinliklər Orta Dəhlizə marağı artırıb. Bu marşrut vasitəsilə Mərkəzi Asiya ölkələri, Çin və digər dövlətlər öz məhsullarını Avropa bazarlarına daha qısa müddətdə və təhlükəsiz şəkildə çatdırmaq imkanı əldə edirlər. Bu isə Azərbaycanın beynəlxalq logistika şəbəkəsində strateji rolunu daha da möhkəmləndirir.

Zəngəzur dəhlizinin açılması perspektivində hazırda icrası davam edən Naxçıvan-İğdır-Qars dəmir yolu layihəsi Cənubi Qafqazın nəqliyyat sistemində yeni strateji halqa kimi qiymətləndirilir. Bu xəttin gələcəkdə Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu ilə inteqrasiyası isə Azərbaycanın tranzit potensialını artırmaqla yanaşı, Orta Dəhlizin imkanlarını da əhəmiyyətli dərəcədə genişləndirə bilər. Belə bir inteqrasiya Naxçıvanın beynəlxalq nəqliyyat şəbəkəsinə daha sıx qoşulmasına, Türkiyə ilə birbaşa dəmir yolu əlaqələrinin genişlənməsinə və bütövlükdə, Avrasiya məkanında yükdaşımalarının daha səmərəli təşkilinə mühüm töhfə verəcək. Bu baxımdan, Naxçıvan-İğdır-Qars xətti BTQ-nin strateji imkanlarını tamamlayan və Orta Dəhlizin inkişafına əlavə təkan verən mühüm infrastruktur layihəsi kimi dəyərləndirilə bilər.

## BTQ: Azərbaycanın geosiyasi və geoiqtisadi gücünün mühüm göstəricisi

Bakı-Tbilisi-Qars dəmir yolu yalnız iqtisadi deyil, həm də mühüm geosiyasi əhəmiyyətə malikdir. Layihə Azərbaycan, Gürcüstan və Türkiyə arasında strateji tərəfdaşlığın daha da möhkəmlənməsinə xidmət edir, regionda siyasi və iqtisadi əməkdaşlığın genişlənməsinə töhfə verir. Eyni zamanda BTQ müxtəlif ölkələri vahid iqtisadi platformada birləşdirərək qarşılıqlı faydalılığı artırır və regional sabitliyin qorunmasına müsbət təsir göstərir. Bu baxımdan, layihə yalnız iştirakçı ölkələrin deyil, bütövlükdə, Avrasiya məkanının iqtisadi inkişafına xidmət edən mühüm infrastrukturlardan biri hesab edilir.

Bütün üstün cəhətləri ilə BTQ dəmir yolu Azərbaycanın həyata keçirdiyi uğurlu nəqliyyat diplomatiyasının da parlaq nümunəsidir. Son illərdə ölkəmiz beynəlxalq nəqliyyat dəhlizlərinin inkişafına xüsusi önəm verərək avtomobil yolları, dəmir yolları, hava limanları və dəniz limanlarından ibarət müasir logistika şəbəkəsi yaradıb. Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizləri ilə birlikdə BTQ dəmir yolu Azərbaycanın beynəlxalq yükdaşımalarının əsas qovşaqlarından birinə çevrilməsinə şərait yaradır. Bu infrastruktur layihələrinin qarşılıqlı inteqrasiyası ölkənin geoiqtisadi əhəmiyyətini daha da artırır.

Layihənin sosial-iqtisadi təsirləri də təqdirəlayiqdir. Belə ki, BTQ xətti ticarət dövriyyəsinin genişlənməsinə, sahibkarlıq fəaliyyətinin inkişafına, ixrac imkanlarının artmasına və yeni iş yerlərinin yaradılmasına töhfə verir. Eyni zamanda region ölkələri arasında turizm, mədəni əlaqələr və humanitar əməkdaşlıq üçün də yeni imkanlar açır. Bu baxımdan, layihə yalnız iqtisadi dividendlər gətirmir, həm də xalqlar arasında qarşılıqlı əlaqələrin möhkəmlənməsinə xidmət edir. Müasir geosiyasi və geoiqtisadi reallıqlar göstərir ki, qlobal ticarət marşrutlarının təhlükəsizliyi və şaxələndirilməsi gələcək inkişafın əsas şərtlərindən biridir. Bakı-Tbilisi-Qars dəmir yolu bu baxımdan etibarlı, dayanıqlı və perspektivli nəqliyyat marşrutu kimi öz əhəmiyyətini getdikcə artırır. Yükdaşımalarının həcminin artırılması istiqamətində həyata keçirilən modernləşdirmə işləri də layihənin uzunmüddətli perspektivdə rəqabət qabiliyyətini gücləndirir.

Ümumilikdə, onu vurğulamaq olar ki, Bakı-Tbilisi-Qars dəmir yolu Azərbaycanın uğurlu iqtisadi və nəqliyyat strategiyasının mühüm nəticələrindən biri kimi çıxış edir. Bu layihə qeyri-neft sektorunun inkişafına təkan verir, Orta Dəhlizin rəqabət üstünlüyünü artırır və Azərbaycanın Avrasiya məkanındakı strateji mövqeyini daha da gücləndirir. Qlobal iqtisadi münasibətlərin yeni mərhələsində BTQ artıq təkcə regional əməkdaşlıq layihəsi deyil, eyni zamanda Azərbaycanın beynəlxalq nüfuzunu, geoiqtisadi təsir gücünü və uzunmüddətli inkişaf hədəflərini dəstəkləyən əsas sütunlardan biridir. Modernləşdirilməsi və yükdaşıma qabiliyyətinin artırılması isə onun səmərəliliyini daha da yüksəldərək gələcək perspektivlərini genişləndirir. Bu baxımdan, əminliklə demək olar ki, bu dəmir yolu Şərqlə Qərbi birləşdirən etibarlı nəqliyyat körpüsü kimi Azərbaycanın qlobal logistika sistemindəki rolunu bundan sonra da gücləndirəcək.

**Nail ƏSGƏROV**



# Dövlət dəstəyi və fermer zəhməti – Naxçıvanda heyvandarlığın inkişafında yeni hədəflər




Müasir çağırışlar və qlobal iqtisadi proseslər aqrar sektorun daha dayanıqlı, rəqabətqabiliyyətli və innovativ əsaslar üzərində inkişafını zəruri edir. Bu baxımdan, Prezident İlham Əliyevin cari il mayın 25-də imzaladığı Sərəncamla təsdiqlənən “Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı” aqrar sahənin gələcək inkişaf prioritetlərini müəyyənləşdirən mühüm strateji sənəd kimi çıxış edir. Dövlət Proqramında bütün istiqamətlərlə yanaşı, heyvandarlıq sektorunun inkişafı ilə bağlı da mühüm tədbirlər nəzərdə tutulub. İntensiv iribuynuzlu heyvandarlıq təsərrüfatlarının genişləndirilməsi hesabına 2030-cu ilədək yüksək məhsuldar cins heyvanların ümumi sürüdə payının faktiki 2,5 faizdən 10 faizə çatdırılması hədəflənir. Süd istehsalının, təqribən, 10, mal əti istehsalının isə 20 faiz artırılması, bununla da, özünütəminetmə səviyyəsinin yüksəldilməsi və mal əti ilə tam təminata nail olunması qarşıya məqsəd qoyulub. Qarşıya qoyulan hədəflərə çatmaq üçün yeni təsərrüfatların yaradılması, onların cins damazlıq heyvanlarla təmin edilməsi, yeni süd və dəri toplama məntəqələrinin qurulması, yem istehsalının texnika və texnologiyalarla təminatının yaxşılaşdırılması, damazlıq heyvan və məhsul subsidiyalarının tətbiqi kimi tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur. Xırdabuynuzlu heyvandarlığın inkişafı istiqamətində isə yarımintensiv qoyunçuluq təsərrüfatlarının yaradılması, yun toplama məntəqələrinin təşkili, örüş və otlaq sahələrinin bərpası, eləcə də təsərrüfatların içməli su təminatının yaxşılaşdırılması kimi tədbirlər müəyyənləşdirilib. Nəticədə, qoyun əti ilə tam özünütəminetmə səviyyəsinə nail olunması planlaşdırılır.

Dövlət Proqramının icrası ilə əlaqədar bütün bölgələrdə olduğu kimi, Naxçıvan iqtisadi rayonunda da regional müşavirə keçirilib, qarşıda duran prioritet vəzifələr müəyyənləşdirilərək aidiyyəti qurumlara müvafiq tapşırıqlar verilib. Bu tədbirlər heyvandarlıq sahəsinin daha səmərəli təşkili, məhsuldarlığın artırılması və ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

Muxtar respublikada heyvandarlığın mövcud inkişaf mənzərəsinə nəzər saldıqda sahənin kənd təsərrüfatının aparıcı istiqamətlərindən biri olduğu aydın görünür. Statistik göstəricilərə əsasən 2025-ci ildə Naxçıvan Muxtar Respublikasında 56,6 min baş iribuynuzlu mal-qara və 353,3 min baş xırdabuynuzlu heyvan qeydiyyata alınıb. Bu göstəricilər ölkə üzrə ümumi heyvan sayının müvafiq olaraq 2,3 və 5,2 faizini təşkil edib.




Heyvandarlıq məhsullarının istehsalı sahəsində də müsbət nəticələr əldə olunub. Belə ki, ötən il muxtar respublikada 21,2 min ton diri çəkidə ət və 60,7 min ton süd istehsal edilib. Respublika üzrə ümumi istehsalda Naxçıvanın payı ət istehsalında 3,2, süd istehsalında isə 2,6 faiz olub. Bu göstəricilər muxtar respublikada heyvandarlığın dayanıqlı inkişaf etdiyini, əhalinin keyfiyyətli heyvandarlıq məhsulları ilə təminatında mühüm rol oynadığını və sahənin gələcək inkişafı üçün geniş potensialın mövcud olduğunu göstərir.

## Dövlət Proqramı Ordubadda heyvandarlığın inkişafını sürətləndirəcək

Ordubad rayonu muxtar respublikada heyvandarlığın inkişaf etdiyi əsas bölgələrdən biri kimi seçilir. Rayonun təbii-iqlim şəraiti, zəngin örüş və otlaq sahələri, eləcə də kənd təsərrüfatı ənənələri bu sahənin inkişafına əlverişli zəmin yaradır. Cari il aprelin 1-nə olan məlumata görə, rayonda 1204 iribuynuzlu və 765 xırdabuynuzlu heyvandarlıq təsərrüfatı fəaliyyət göstərir. Bu təsərrüfatlarda məhsuldarlığın artırılması, cins tərkibinin yaxşılaşdırılması və yem bazasının möhkəmləndirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Ötən il rayonda 2904 ton ət, 4252,6 ton süd və 87,9 ton yun istehsal olunması heyvandarlıq sahəsində əldə olunan uğurların bariz göstəricisidir. İstehsal göstəricilərinin artması həm əhalinin ərzaq təminatında, həm də kənd yerlərində məşğulluğun genişlənməsində mühüm rol oynayır.

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə təsdiq edilmiş 2026-2030-cu illəri əhatə edən kənd təsərrüfatının inkişafına dair Dövlət Proqramı çərçivəsində nəzərdə tutulan tədbirlərin Ordubad rayonunda da heyvandarlığın daha sürətli inkişafına təkan verəcəyi gözlənilir. Proqramın icrası nəticəsində yeni heyvandarlıq təsərrüfatlarının yaradılması, mövcud təsərrüfatların maddi-texniki bazasının gücləndirilməsi, məhsuldarlığın yüksəldilməsi və istehsal həcminin daha da artırılması üçün əlverişli imkanlar formalaşacaq. Bu isə rayonun aqrar potensialının güclənməsinə, kənd əhalisinin rifahının yüksəlməsinə və regionun iqtisadi inkişafına mühüm töhfə verəcək.

Culfa Regional Dövlət Aqrar İnkişaf Mərkəzinin Heyvandarlığın təşkili, örüş və otlaqlara nəzarət sektorunun aparıcı məsləhətçisi Umar Şükürlü bildirir ki, Dövlət Proqramında kənd təsərrüfatının müasir və dayanıqlı inkişafının təmin olunması məqsədilə mühüm prioritetlər müəyyən edilib. İribuynuzlu mal-qaranın baş sayının artırılması, ət və süd istehsalının yüksəldilməsi, qoyunçuluğun inkişaf etdirilməsi, quş əti və yumurta istehsalının genişləndirilməsi proqramın əsas istiqamətləri sırasındadır. Dövlət Proqramının uğurlu icrası Naxçıvanda heyvandarlığın daha müasir və səmərəli əsaslar üzərində inkişafına təkan verməklə yanaşı, əhalinin keyfiyyətli ərzaq məhsulları ilə təminatının yaxşılaşdırılmasına, ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsinə və kənd yerlərində məşğulluğun artırılmasına mühüm töhfə verəcək.





“Culfa Regional Dövlət Aqrar İnkişaf Mərkəzi tərəfindən heyvandarlıqla məşğul olan fermer və sahibkarlarla mütəmadi görüşlər keçirilir, onların qarşılaşdıqları problemlər, təklif və təşəbbüslər diqqətlə öyrənilir. Qaldırılan məsələlərin operativ həlli məqsədilə aidiyyəti qurumlarla birgə koordinasiyalı tədbirlər həyata keçirilir. Bununla yanaşı, fermerlərin dövlət tərəfindən təqdim olunan güzəşt və dəstək mexanizmlərindən daha səmərəli istifadə etmələri üçün maarifləndirmə tədbirləri təşkil olunur, onlara metodiki və məsləhət xidməti göstərilir. Heyvandarlıq təsərrüfatlarında məhsuldarlığın artırılması, cins tərkibinin yaxşılaşdırılması, yem bazasının gücləndirilməsi və müasir idarəetmə üsullarının tətbiqi istiqamətində də davamlı iş aparılır. Dövlət Proqramında nəzərdə tutulan bütün tədbirlərin vaxtında və tam şəkildə reallaşdırılması üçün bundan sonra da bütün imkanlarımızı səfərbər edəcək, kənd təsərrüfatının inkişafına öz töhfəmizi verməyə çalışacağıq”, – deyə Culfa Regional DAİM-in əməkdaşı vurğulayıb.

Ordubad rayonunun Darkənd kənd sakini, 15 ildən artıqdır, heyvandarlıqla məşğul olan fermer Cahangir Orucov Dövlət Proqramının icrasının rayonun ümumi təsərrüfat həyatını canlandıracağını deyir. O əsasən, simmental cinsli mal-qaranın yetişdirilməsi ilə məşğul olduğunu, təsərrüfatında həm südlük, həm də ətlik istiqamətli heyvanların saxlanıldığını bildirir.

Fermer qeyd edir ki, dövlətin lizinq mexanizmi ilə bu ilin may ayında Çexiyadan ölkəyə simmental cinsli heyvanlar gətirilməsindən yararlanaraq 7 baş damazlıq iribuynuzlu mal-qara əldə edib. Təsərrüfatın yem bazası, əsasən, öz imkanları hesabına formalaşdırılır. Belə ki, ona məxsus torpaq sahələrində yonca, buğda, arpa və digər yem bitkiləri becərilir, heyvanların yem tələbatı isə bu məhsullar hesabına təmin olunur.

“Heyvanlar üçün lazım olan yem bazasını öz əkin sahələrim hesabına formalaşdırmışam. Hazırda təsərrüfatımı inkişaf etdirirəm və gələcəkdə fermamı daha da böyüdərək simmental cinsli mal-qaranın yetişdirilməsi ilə daha geniş miqyasda məşğul olmağı planlaşdırıram. Qarşıdakı illərdə mal-qaranın sayını artırmaqla yanaşı, cins tərkibini və məhsuldarlığı da yüksəltmək niyyətindəyəm. Prezident İlham Əliyevin təsdiq etdiyi Dövlət Proqramı fermerlərə göstərilən diqqət və qayğının növbəti təzahürüdür. Bu proqram fəaliyyətimizi genişləndirmək üçün bizə əlavə stimul və dəstək verir”, – deyə fermer bildirib.

Göründüyü kimi, Naxçıvan Muxtar Respublikasında heyvandarlıq kənd təsərrüfatının aparıcı sahələrindən biri olmaqla əhalinin məşğulluğunda və ərzaq təminatında mühüm rol oynayır. Bu baxımdan, Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi regionda heyvandarlığın daha da inkişafına, məhsuldarlığın yüksəlməsinə, cins tərkibinin yaxşılaşdırılmasına və yeni təsərrüfatların formalaşmasına geniş imkanlar yaradacaq. Beləliklə, dövlət dəstəyi və fermerlərin zəhməti nəticəsində Naxçıvanda heyvandarlıq sahəsi yeni inkişaf mərhələsinə qədəm qoyacaq, bu da kənd yerlərində sosial-iqtisadi rifahın yüksəlməsinə və ərzaq təhlükəsizliyinin möhkəmlənməsinə mühüm töhfə verəcək.

**“Şərq qapısı”**

## 265 hektarda buğda biçini aparılıb: Naxçıvanda taxıl yığımı davam edir



Ötən ilin payızında və bu ilin yazında muxtar respublika üzrə, ümumilikdə, 13 min 844,1 hektar sahədə taxıl əkini aparılıb. Əkin sahələrinin 4 174,3 hektarını buğda, 9 669,77 hektarını isə arpa təşkil edib.

Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, hazırkı mərhələdə biçin, əsasən, arpa sahələrində intensiv şəkildə aparılır. İndiyədək 2 533,9 hektar arpa sahəsində biçin başa çatdırılıb və sahələrdən 7 497,9 ton məhsul tədarük olunub. Bu göstərici ötən ilin müvafiq dövründə qeydə alınan göstəricidən 40,3 faiz yüksəkdir. Hazırda arpa əkinlərinin 26,2 faizi biçilib.

Buğda sahələrində isə 265 hektarda biçin aparılıb, 786,52 ton məhsul əldə edilib. Bu da ötən ilin eyni dövrü ilə müqayisədə 47 faiz artım deməkdir. Bu günədək buğda əkinlərinin 6,3 faizi biçilərək məhsul tədarükü həyata keçirilib.

Taxıl biçininin operativ və itkisiz həyata keçirilməsi məqsədilə muxtar respublika üzrə saz vəziyyətdə olan 68 kombayndan hazırda 41-i biçin işlərinə cəlb edilib. Biçin üçün Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyi və aidiyyəti dövlət orqanlarından ibarət Mərkəzi Qərargah yaradılıb. Həmçinin rayonlarda da Dövlət Aqrar İnkişaf Mərkəzi və aidiyyəti dövlət orqanlarının nümayəndələrindən ibarət Mərkəzi Qərargah fəaliyyət göstərir.

Qeyd edək ki, bu il müşahidə olunan yüksək məhsuldarlıq dövlətin aqrar sahəyə göstərdiyi davamlı dəstəyin, fermerlərin əkin mövsümünə keyfiyyətli toxum, mineral gübrə və digər kənd təsərrüfatı vasitələri ilə vaxtında təmin edilməsinin, eləcə də aqrotexniki tədbirlərin optimal müddətdə və düzgün həyata keçirilməsinin nəticəsidir. Bununla yanaşı, əlverişli hava şəraiti və torpaq mülkiyyətçilərinin əkin sahələrinə göstərdikləri düzgün qulluq da məhsuldarlığın yüksəlməsində mühüm rol oynayıb. Hazırda muxtar respublikanın Şahbuz rayonu istisna olmaqla digər rayonlarında taxıl biçini davam etdirilir. Məhsul yığımının optimal müddətdə başa çatdırılması, məhsul itkisinin minimuma endirilməsi və yetişdirilən taxılın vaxtında tədarük olunması istiqamətində zəruri tədbirlər görülür.



# NDU-nun 56-cı "Məzun günü" möhtəşəm konsert proqramı və unudulmaz anlarla yadda qalıb



İyunun 29-da Naxçıvan şəhərindəki "Saat Meydanı"nda Naxçıvan Dövlət Universitetinin sayca 56-cı "Məzun günü" keçirilib.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və Vətən uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Daha sonra universitetin son bir il ərzində əldə etdiyi uğurları, həyata keçirdiyi layihələri və yaddaqalan anları əks etdirən videoçarx nümayiş etdirilib.





Tədbir musiqi sədaları altında universitetin müxtəlif təhsil pillələri üzrə məzunlarının təntənəli keçidi ilə davam edib. Universitetin bütün fakültələrinin, Magistratura və doktorantura mərkəzinin, həmçinin NDU nəzdində fəaliyyət göstərən Texniki Kollec, Musiqi Kolleci və Tibb Kollecinin, eləcə də gimnaziyanın məzunları mərasimdə iştirak ediblər.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev çıxış edərək məzunları təbrik edib, onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb. Rektor bildirib ki, bu il universitet tarixində 2347 məzunla ən böyük məzun buraxılışı həyata keçirilir. Elbrus İsayev qeyd edib ki, Naxçıvan Dövlət Universiteti bu günədək 43848 məzun yetişdirib və həmin məzunlar ölkənin müxtəlif dövlət və özəl qurumlarında uğurla fəaliyyət göstərərək universiteti layiqincə təmsil edirlər. 12 minə yaxın tələbə kontingenti ilə universitetin dövlətin prioritetlərinə uyğun peşəkar kadr hazırlığını uğurla davam etdirdiyi vurğulanıb.

Çıxışında Ümummilli Lider Heydər Əliyevin təhsilə və gənclərə göstərdiyi xüsusi diqqət və qayğının bu gün də uğurla davam etdirildiyini vurğulayan rektor Prezident cənab İlham Əliyevin gənclərə göstərdiyi yüksək etimadın onların üzərinə böyük məsuliyyət qoyduğunu bildirib. Elbrus İsayev məzunların qazandıqları bilik və bacarıqlarla dövlətimizin inkişafına layiqli töhfələr verəcəklərindən əminliyini ifadə edib.

Daha sonra Naxçıvan Dövlət Universitetinin fəxri məzunu, tarix üzrə fəlsəfə doktoru, dosent Bəhlul İbrahimli çıxış edərək bildirib ki, bu gün Naxçıvan Dövlət Universiteti beynəlxalq səviyyədə nüfuz qazanan ali təhsil müəssisəsinə çevrilib. Universitetin son illərdə əldə etdiyi uğurları yüksək qiymətləndirən fəxri məzun bu inkişafın hər bir məzun üçün qürurverici olduğunu vurğulayıb.

Universitetin əcnəbi məzunları adından Tibb fakültəsinin məzunu Saime Buse Güven və bütün tələbələr adından NDU-nun Heydər Əliyev adına təqaüdçüsü, Tarix-filologiya fakültəsinin məzunu Əziz Vəliyev çıxış edərək tələbəlik illərinin xatirələrini bölüşüb, yaradılan imkanlara, keyfiyyətli təhsilə görə NDU rəhbərliyinə və bütün professor-müəllim heyətinə minnətdarlıqlarını bildiriblər.

Tədbirdə Ümumi Orta Müvəffəqiyyət Göstəricisinə (ÜOMG) görə fakültə birincilərinə və tələbə təşkilatlarında xüsusi fəallığı ilə seçilən məzunlara təşəkkür plaketləri təqdim olunub.

"Məzun günü" atəşfəşanlıq və Murad Arif ilə Miri Yusifin iştirakı ilə keçirilən konsert proqramı ilə davam edib.



# Naxçıvan Hərbi Kollecinin 1-ci məzun buraxılış mərasimi keçirilib

Milli Müdafiə Universitetinin tabeliyində fəaliyyət göstərən Naxçıvan Hərbi Kollecinin 1-ci məzun buraxılış mərasimi keçirilib.

Tədbirdə əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və Azərbaycan Respublikasının ərazi bütövlüyü, suverenliyi uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Daha sonra Naxçıvan Hərbi Kollecinin rəisi məzun buraxılış mərasiminə hazırlıq barədə Əlahiddə Ümumqoşun Ordunun komandanı, Vətən müharibəsi qəhrəmanı, general-leytenant Kənan Seyidova məruzə edib.

Mərasimdə çıxış edən Əlahiddə Ümumqoşun Ordunun komandanı, Vətən müharibəsi qəhrəmanı, general-leytenant Kənan Seyidov məzunları təbrik edərək onlara gələcək xidmətlərində uğurlar arzulayıb, Vətənə sədaqətlə xidmət etməyin, hərbi andı daim uca tutmağın və Azərbaycan hərbi qulluqçusu şərəfli adını layiqincə qorumağın vacibliyini vurğulayıb.

Sonra Milli Müdafiə Universiteti rektorunun elm və təhsil üzrə müavini, milli təhlükəsizlik və hərb elmləri üzrə fəlsəfə doktoru, professor, general-mayor Arif Həsənov çıxış edərək məzunları əlamətdar gün münasibətilə təbrik edib, onlara Vətənə şərəflə xidmət etməyi, peşəkar hərbi qulluqçu kimi daim inkişaf etməyi arzulayıb.

Mərasimdə Naxçıvan Hərbi Kollecini fərqlənmə ilə bitirən məzunlara Əlahiddə Ümumqoşun Ordunun komandanı, general-leytenant Kənan Seyidov tərəfindən sertifikatlar və qiymətli hədiyyələr təqdim olunub. Daha sonra kolleci bitirən digər məzunlara rəhbər heyət tərəfindən sertifikatlar təqdim edilib.

Kolleci birinciliklə başa vuran məzun tərəfindən yaş kötüyünə xatirə simvolu vurulub.

Ardınca Naxçıvan Hərbi Kollecinin Döyüş Bayrağının təhvili və qəbulu mərasimi icra olunub.

Məzun buraxılış mərasimi şəxsi heyətin təntənəli marşla keçidi ilə başa çatıb.



# Naxçıvan Hərbi Kollecinin ilk məzunlarının sevincini ailələri də bölüşdü

Milli Müdafiə Universitetinin tabeliyində fəaliyyət göstərən Naxçıvan Hərbi Kollecinin 1-ci məzun buraxılış mərasimi təkcə məzunlar üçün deyil, onların valideynləri üçün də unudulmaz günə çevrilib. İllərlə övladlarının hərbçi kimi yetişməsi üçün göstərdikləri zəhmətin bəhrəsini görən ailələr bu tarixi anı böyük qürur hissi ilə qarşılayıblar.

"Şərq qapısı"nın əməkdaşları ailələrlə həmsöhbət olub onların təəssüratlarını öyrənib. Mərasimdə iştirak edən valideynlər övladlarının Vətənə xidmət yolunu seçməsini özləri üçün ən böyük fəxr hesab etdiklərini bildiriblər.

Məzun Elmaz Əzimovun anası Hökümə Əzimova oğlunun hərbi kolleci uğurla başa vurmasının ona sonsuz sevinc bəxş etdiyini deyib. O, övladının gələcəkdə də atasının yolu ilə gedərək daha böyük zirvələr fəth edəcəyinə inandığını bildirib və ona Vətənə şərəflə xidmət etməyi arzulayıb.

Məzun Sənan İbrahimovun atası Samir İbrahimov da bu günün ailələri üçün xüsusi əhəmiyyət daşıdığını bildirib. O qeyd edib ki, övladının Naxçıvan Hərbi Kollecini uğurla başa vuraraq hərbçi kimi ilk mühüm mərhələni geridə qoyması onlar üçün böyük qürur və sevinc mənbəyidir. Ata vurğulayıb ki, bu təhsil və hazırlıq gələcək xidmət yolunda oğluna möhkəm təməl olacaq. O, Sənanın Vətənə layiqli hərbçi kimi xidmət edəcəyinə, hər zaman dövlətinə, xalqına və hərbi andına sadiq qalacağına inandığını bildirib. Samir İbrahimov bütün məzunlara gələcək xidmətlərində uğurlar arzulayaraq onların Azərbaycanın təhlükəsizliyinin və ərazi bütövlüyünün qorunmasında məsuliyyətlə xidmət edəcəklərinə əminliyini ifadə edib.





Siyəzən rayonundan gələn məzun Elxan Səfərovun anası Pərvanə Səfərova da bu əlamətdar günün sevincini yaşayan valideynlərdəndir. O, oğlunun Naxçıvan Hərbi Kollecini uğurla başa vurmasının ailələri üçün qürurverici olduğunu vurğulayıb. Pərvanə Səfərova bütün məzunlara gələcək xidmətlərində uğurlar arzulayaraq onların Vətənin keşiyində layiqincə dayanacaqlarına inandığını ifadə edib.

Bu məzuniyyət mərasimi, sadəcə, diplom təqdimatı deyil, həm də Vətənə sədaqətlə xidmət edəcək yeni nəslin xidmət yoluna ilk inamlı addımıdır. Onlar övladlarının üzərinə düşən məsuliyyətin böyüklüyünü dərk etdiklərini, gələcəkdə dövlətə və xalqa şərəflə xidmət edəcəklərinə ürəkdən inandıqlarını qeyd etdilər.

**Zəhra VƏLİYEVA**







# Naxçıvanda baramaçılıq ənənəsi dirçəlir:
## dövlət dəstəyi, yüksək məhsuldarlıq və artan maraq

Prezident İlham Əliyevin bu il mayın 25-də təsdiqlədiyi "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"nda ölkədə ənənəvi sahələrin daha da inkişaf etdirilməsi və yüksək məhsuldarlığın əldə olunması mühüm hədəflərdən biri kimi müəyyən edilib. Dövlət Proqramında nəzərdə tutulan prioritetlər son illərdə bu istiqamətdə həyata keçirilən məqsədyönlü tədbirlərin davamı kimi çıxış edir. Belə tədbirlərdən biri olan baramaçılıq fəaliyyətinə muxtar respublikada üç il əvvəl pilot layihə kimi başlanılıb. Həyata keçirilən sistemli tədbirlər nəticəsində isə bu sahəyə maraq və məhsuldarlıq ildən-ilə artır. Görülən tədbirlərin nəticəsidir ki, 2024-cü ildə ilk dəfə muxtar respublikaya 30 qutu ipəkqurdu toxumu gətirilib və ilkin mərhələdə 1119 kiloqram məhsul əldə edilib. 2025-ci ildə isə gətirilən toxumun həcmi 40 qutuya çatdırılıb və məhsuldarlıq artaraq 1757 kiloqrama yüksəlib ki, bu da 17 faiz artım deməkdir.

***Baramaçılıqda rekord məhsuldarlıq – Naxçıvan ölkə birincisi olub***

Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin sektor müdiri Rübabə Hüseynzadə qeyd edir ki, dinamik artım tempinin davamı olaraq 2026-cı il mövsümündə muxtar respublikaya 50 qutu ipəkqurdu toxumu gətirilib, barama istehsalı uğurlu göstəricilərlə başa çatdırılıb və ümumilikdə, 2880 kiloqram yaş barama istehsal edilib. Cari ilin bu uğurlu nəticəsi 2025-ci ilin istehsal göstəriciləri ilə müqayisədə 31,1 faiz artım deməkdir. Barama istehsalında bir qutudan orta hesabla 110 kiloqram məhsul əldə edən Şahbuz rayonunun Ayrınc kəndi muxtar respublika üzrə birinci, 103 kiloqram göstərici ilə Babək rayonunun Şıxmahmud kəndi isə ikinci yeri tutub.

Rübabə Hüseynzadənin sözlərinə görə, qazanılan bu yüksək məh-



suldarlıq sayəsində Naxçıvan Muxtar Respublikası yaş barama istehsalının artım tempinə və səmərəliliyinə görə, bir qutu üçün ortalama hesabla 57,6 kiloqram olmaqla ölkə üzrə birinci yerdə qərarlaşıb: "2026-cı ilin istehsal göstəricilərinin rayonlar üzrə təhlili göstərir ki, muxtar respublikanın bütün bölgələrində kümçülər mövsümü yüksək uğurla başa vurub. Belə ki, hesabat dövründə Şərur rayonu üzrə 577,88 kq, Ordubad rayonu üzrə 565,1 kq, Babək rayonu üzrə 555,72 kq, Kəngərli rayonu üzrə 395,3 kq, Culfa rayonu üzrə 276,1 kq, Şahbuz rayonu üzrə 229 kq, Sədərək rayonu üzrə 195,4 kq və Naxçıvan şəhəri üzrə 85,5 kq yaş barama istehsal edilərək emal olunması üçün Azərbaycan Respublikasının Şəki şəhərində yerləşən "Azəripək" ASC-yə göndərilib".

"Baramaçılıqla məşğul olan istehsalçıların fəaliyyətini stimullaşdırmaq məqsədilə dövlət tərəfindən dəstək mexanizmi formalaşdırılıb. Müəyyən olunmuş qaydalara əsasən hər kiloqram yaş baramaya görə dövlət tərəfindən kümçülərə 6 manat subsidiya ödənilir. Bununla yanaşı, məhsulu satınalan şirkət tərəfindən hər kiloqram üçün 5 manat məbləğində ödəniş həyata keçirilir. Baramaçılıq qısa müddət ərzində ailə təsərrüfatlarına ən sürətli və yüksək gəlir qazandıran, yerli məşğulluğu təmin edən və muxtar respublika üçün yüksək rentabelli olan strateji bir aqrar sahə kimi öz səmərəliliyini növbəti dəfə sübut edib. Əminliklə demək olar ki, Prezident İlham Əliyevin təsdiqlədiyi aqrar sahənin inkişafı ilə bağlı 2026-2030-cu illəri əhatə edən Dövlət Proqramı növbəti illərdə bu sahənin daha genişləndirilməsinə təkan verəcək", – deyə nazirliyin rəsmisi əlavə edib.

***Dövlət dəstəyi və kümçülərin zəhməti real nəticələrini verir***

Naxçıvanda baramaçılığın inkişafı kümçülərin əldə etdiyi uğurlu nəticələrdə də özünü göstərir. Dövlət dəstəyi, vaxtında təmin olunan ipəkqurdu toxumu və göstərilən aqrotexniki xidmətlər nəticəsində bu sahəyə maraq artır. İlk dəfə baramaçılıqla məşğul olan kümçülər də qısa müddətdə yüksək məhsuldarlıq əldə edərək muxtar respublika üzrə ön sıralarda qərarlaşıblar.

Şahbuz rayonunun Ayrınc kəndindən olan kümçü Kənan Həsənli



bildirir ki, bu il ilk dəfə ipəkqurdu bəsləyib. İşin zəhmətli və səbir tələb edən olduğunu əvvəlcədən bilsələr də, 23 gün ərzində gecə-gündüz ipəkqurdlarına ciddi qayğı göstəriblər.

Kümçü qeyd edir ki, göstərilən zəhmət hədər getməyib və nəticədə 110 kiloqram yaş barama istehsal edərək təhvil veriblər. Bu göstərici ilə hazırda Naxçıvan Muxtar Respublikası üzrə birinci yerə yüksəliblər. Əldə olunan nəticə onları daha da ruhlandırır və gələcək illərdə istehsalı artırmağı planlaşdırırlar.

Babək rayonunun Şıxmahmud kənd sakini, kümçü Abbas Hacı-



yev bildirir ki, baramaçılıq sahəsi haqqında ümumi məlumatı olsa da, bu işlə ilk dəfə məşğul olub. O, iki qutu ipəkqurdu götürərək, ümumilikdə, 206 kiloqram yaş barama istehsal edib. Hər qutudan orta hesabla 103 kiloqram məhsul əldə etməklə Naxçıvan Muxtar Respublikası üzrə ikinci yerə çıxıb.

Kümçü qeyd edir ki, baramaçılıq zəhmətli olsa da, eyni zamanda maraqlı və həvəsləndirici sahədir. Bu sahə böyük məsuliyyət, nizam-intizam və davamlı qayğı tələb edir. Bütün qaydalara düzgün əməl edildiyi halda isə yüksək məhsuldarlıq əldə etmək mümkündür.

Naxçıvanda baramaçılıq sahəsində son illərdə əldə olunan uğurlu nəticələr göstərir ki, dövlət dəstəyi, düzgün təşkilatlanma və kənd sakinlərinin artan marağı ənənəvi təsərrüfat sahəsinin yenidən inkişafına mühüm zəmin yaradıb. Bu baxımdan, Prezident İlham Əliyevin təsdiqlədiyi "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı" baramaçılığın inkişafı üçün yeni perspektivlər açır. Proqram çərçivəsində kənd təsərrüfatının rəqabət qabiliyyətinin artırılması, məhsuldarlığın yüksəldilməsi, emal imkanlarının genişləndirilməsi və kənd yerlərində məşğulluğun gücləndirilməsi istiqamətində nəzərdə tutulan tədbirlər bu sahənin inkişafına da mühüm töhfə verəcək.

Artan istehsal göstəriciləri, kümçülərin qazandığı uğurlar və kəndlərdə formalaşan yeni təsərrüfat ənənələri onu deməyə əsas verir ki, Dövlət Proqramında müəyyənləşdirilən hədəflərin ardıcıl icrası Naxçıvanda baramaçılığın daha da genişlənməsinə, iqtisadi səmərəliliyinin artmasına və bu sahənin dayanıqlı inkişafının təmin olunmasına əlavə stimul yaradacaq. Beləliklə, baramaçılıq təkcə kənd təsərrüfatının ənənəvi sahələrindən biri deyil, həm də kənd əhalisinin gəlirlərinin artırılmasına, məşğulluğun təmin edilməsinə və regionun sosial-iqtisadi inkişafına töhfə verən mühüm fəaliyyət istiqaməti kimi öz əhəmiyyətini daha da möhkəmləndirəcək.

**"Şərq qapısı"**





# XXI əsrin qlobal sağlamlıq çağırışı: zoonoz xəstəliklər

***Hər il 6 iyul tarixi "Ümumdünya Zoonoz Günü" kimi qeyd edilir. Bu tarix məşhur alim Lui Pasterin 1885-ci ildə ilk dəfə quduzluq peyvəndini insan üzərində uğurla tətbiq etməsi ilə bağlıdır. Bu gün insan, heyvan və ətraf mühit sağlamlığı arasındakı ayrılmaz əlaqəni bir daha diqqət mərkəzinə gətirir. Zoonoz xəstəliklərin qlobal miqyasda yaratdığı risklərə diqqət çəkməklə yanaşı, onların qarşısının alınmasında sektorlararası əməkdaşlığın və koordinasiyalı fəaliyyətin vacibliyini vurğulayır.***



Müasir dövrdə zoonoz xəstəliklər yalnız səhiyyə və baytarlıq sahəsinin problemi deyil, eyni zamanda qlobal sağlamlıq təhlükəsizliyi, qida təhlükəsizliyi, ərzaq təminatı, iqtisadi sabitlik və ətraf mühitin mühafizəsi baxımından mühüm çağırışlardan biri hesab olunur. Ümumdünya Səhiyyə Təşkilatının və Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının birgə məlumatlarına əsasən insanlarda müşahidə olunan yoluxucu xəstəliklərin 60 faizdən çoxu zoonoz mənşəlidir, yeni yaranan infeksion xəstəliklərin isə, təxminən, 75 faizi heyvan mənşəli patogenlərlə əlaqələndirilir.

Son illərdə yüksək patogenliyə malik zoonoz mənşəli xəstəliklərin yayılması göstərmişdir ki, heyvanlar aləmində meydana gələn infeksion təhlükələr qısa müddət ərzində regional problem olmaqdan çıxaraq beynəlxalq ictimai sağlamlıq böhranına çevrilə bilər. Bu səbəbdən zoonoz xəstəliklərin monitorinqi, erkən aşkarlanması, profilaktikası və effektiv idarə olunması bütün ölkələr üçün prioritet istiqamətlərdən biri hesab edilir.

Zoonoz xəstəliklərlə mübarizədə ən mühüm yanaşmalardan biri "Vahid Sağlamlıq" konsepsiyasıdır. BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı, Ümumdünya Səhiyyə Təşkilatı, Ümumdünya Heyvan Sağlamlığı Təşkilatı və BMT-nin Ətraf Mühit Proqramı tərəfindən dəstəklənən bu model insan sağlamlığı ilə ev və vəhşi heyvanların sağlamlığı, bitki örtüyü, torpaq, su ehtiyatları və ekosistemlər arasında mövcud olan qarşılıqlı asılılığı qəbul edir.

İnsan sağlamlığının heyvan sağlamlığından ayrı qiymətləndirilməsinin mümkün olmaması, həmçinin heyvan sağlamlığının ətraf mühitin vəziyyəti ilə sıx bağlı olması bu konsepsiyanın əsas fəlsəfəsini təşkil edir.

Heyvanlardan insanlara və ya insanlardan heyvanlara ötürülə bilən yoluxucu xəstəliklər zoonoz xəstəliklər kimi xarakterizə edilir. Bu xəstəliklərin insanlara ötürülməsi müxtəlif epidemioloji mexanizmlər vasitəsilə baş verir. Yoluxma xəstə heyvan və ya insanla birbaşa təmas nəticəsində, yoluxmuş qida və su vasitəsilə, hava-damcı yolu ilə, heyvan dişləmələri və həşərat sancmaları nəticəsində, eləcə də anadan dölə ötürülmə yolu ilə baş verə bilər. Bir çox zoonoz infeksiyaların yayılmasında gənələr, ağcaqanadlar, milçəklər və gəmiricilər mühüm rol oynadığından onlar transmissiv və ya vektor mənşəli xəstəliklər kimi xarakterizə olunur.

Müasir dövrdə zoonoz xəstəliklərin yayılmasında qida amili xüsusi əhəmiyyət daşıyır. Qida mənşəli zoonoz infeksiyalar mikroorqanizmlərlə çirklənmiş qida məhsullarının istehlakı nəticəsində yaranır və qısa müddət ərzində geniş əhali qrupları arasında yayıla bilir.

Qida zəncirində zoonoz infeksiyaların yayılması heyvanların yetişdirilməsi mərhələsindən başlayaraq kəsim, emal, daşınma, saxlanma və istehlak mərhələlərinədək davam edə bilər. Bu baxımdan, qida təhlükəsizliyinin əsas prinsiplərindən biri hesab olunan "fermadan süfrəyə qədər" yanaşması xüsusi əhəmiyyət kəsb edir. Bu prinsip qida məhsullarının istehsalının bütün mərhələlərində risklərin müəyyənləşdirilməsini, qiymətləndirilməsini və idarə olunmasını nəzərdə tutur.

"Vahid Sağlamlıq" konsepsiyasının mühüm istiqamətlərindən biri də antimikrob preparatlara qarşı müqavimətlə mübarizədir. Heyvandarlıq təsərrüfatlarında antibiotiklərin qeyri-rasional və nəzarətsiz istifadəsi nəticəsində mikroorqanizmlərdə davamlılıq formalaşır və bu davamlılıq qida zənciri, ətraf mühit və ya birbaşa təmas vasitəsilə insanlara ötürülə bilir. Ümumdünya Səhiyyə Təşkilatı antimikrob müqavimətini bəşəriyyətin üzləşdiyi ən ciddi qlobal ictimai sağlamlıq təhdidlərindən biri kimi qiymətləndirir. Problemin effektiv həlli səhiyyə, baytarlıq, kənd təsərrüfatı və ekoloji sektorlar arasında birgə əməkdaşlıq tələb edir.

Zoonoz xəstəliklər XXI əsrin ən ciddi qlobal sağlamlıq çağırışlarından biri olaraq qalır. İnsan, heyvan və ətraf mühit sağlamlığı arasındakı sıx qarşılıqlı əlaqə bu xəstəliklərlə mübarizədə kompleks və multidissiplinar yanaşmanın vacibliyini bir daha təsdiqləyir. "Vahid Sağlamlıq" konsepsiyası insan, heyvan, bitki və ətraf mühit sağlamlığını vahid sistem kimi qiymətləndirərək zoonoz xəstəliklərin profilaktikası, erkən aşkarlanması və effektiv idarə olunması üçün elmi cəhətdən əsaslandırılmış strateji model təqdim edir.

"Vahid Sağlamlıq" yanaşmasının əsas məqsədi heyvanlardan insanlara keçən xəstəliklərin qarşısının alınması, erkən aşkarlanması və idarə olunmasıdır. Bu çərçivədə ölkəmizdə aidiyyəti dövlət qurumları arasında qarşılıqlı əməkdaşlıq gücləndirilir, o cümlədən Naxçıvan Muxtar Respublikasının müvafiq qurumları dövri olaraq zoonoz xəstəliklərin monitorinqi və nəzarəti üzrə mütəmadi birgə fəaliyyət göstərirlər.

Muxtar respublikada zoonoz xəstəliklərin yayılmasının qarşısının alınmasında qida təhlükəsizliyi sahəsində görülən tədbirlər mühüm əhəmiyyət daşıyır. Heyvan mənşəli qida məhsullarının istehsalı, daşınması və satışına nəzarət mexanizmləri davamlı olaraq təkmilləşdirilir.

Azərbaycan hökumətinin "Vahid Sağlamlıq" konsepsiyası çərçivəsində həyata keçirdiyi tədbirlər zoonoz xəstəliklərə qarşı dayanıqlı müdafiə sisteminin formalaşdırılmasına yönəlmişdir. Qida təhlükəsizliyinin gücləndirilməsi, tibbi nəzarət mexanizmlərinin təkmilləşdirilməsi, iqlim dəyişikliklərinin səhiyyəyə təsirlərinin qiymətləndirilməsi və beynəlxalq əməkdaşlığın genişləndirilməsi ölkənin bu sahədə strateji prioritetlərini əks etdirir. Mütəxəssislərin qənaətinə görə, insan, heyvan və ətraf mühit sağlamlığını vahid sistem kimi nəzərdən keçirən bu yanaşma gələcəkdə yeni epidemioloji risklərin qarşısının alınmasında da mühüm rol oynayacaqdır.

**Səidə MİRZƏYEVA**
*Naxçıvan Muxtar Respublikası Qida Təhlükəsizliyi Agentliyinin əməkdaşı*

*O gecəni hamı rahat-rahat yatağında yuxuya gedərkən Ərkinas xanımın gözünə yuxu getmirdi. Xəyalı uşaqlığının, gəncliyinin keçdiyi o dağda, daşda dolaşırdı. Dan yeri ağarar-ağarmaz yerindən qalxdı. Həyəcandan su da boğazından keçmirdi. Dolabı açdı. Bir xeyli seçim edəndən sonra nə geyinəcəyini qərarlaşdırdı. Donunu geyinib, yaylığını başına saldı. Beləcə oturdu gözlərini telefona zilləyərək. O anı gözləyənə qədər sanki illər keçdi. Nəhayət, gələn telefon zəngindən sonra yola çıxdı. Kəndin körpüsünü keçəndən sonra bir anlıq Ərkinas xanım diqqətlə yola baxdı. Yol yoldaşı Şölə xanım: "Biz bu yolla Bakıya gedərdik yolboyu Araz çayına baxa-baxa. Araz yenə həmin Arazdır, lal axır, amma illərdir, səssiz qalan bu yerlər insan nəfəsi ilə isinəcək". "Bu günümüzə şükür", – deyib dua edirlər. Hərdən keçmişlərə dalıb gedirlər. Yol əhvalatların danışıb gülüşürlər. 30 ildən çoxdur, lal axan Araza qoşularaq dərin sükuta dalmış bu yol yenidən canlanacaq. Bizi bizə aparan yol, arzularımıza, ümidlərimizə işıq salan yol – Zəngəzur dəhlizi.*



# Bura Vətən yoludur

## Naxçıvanın xatirələrdə yaşayan kəndləri

"Bura Vətən yoludur", – deyən Ərkinas xanım köks ötürərək bütün diqqəti getdiyi ünvana kökləyir: "1984-cü ildə oradan Kotam kəndinə gəlin köçmüşəm, ondan sonra bir, ya iki dəfə yolum düşüb. 1988-ci ildə axırıncı ev də köç etdi. Yol-iz yox idi, bir tərəfdən də işsizlik adamları ucqardan aşağılara köç etməyə vadar etdi".





Nahamar yollarla üzüyuxarı qalxırıq, yolboyu uzanan dağ silsiləsi bizi müşayiət edir. Yavaş-yavaş xarabalıqları qalmış tikililər görünür. Ərkinas xanımın həyəcanı bir az da artır. Avtomobil uçuq evlərin qənşərinə çatanda dayanır. Ətrafa dərin bir sükut çökür. Ərkinas xanım danışır: "Bunlar tövlələr idi, ora dükan idi". Əli ilə daha uzaqları göstərir: "Ora bizim tut bağları idi. Hamısını xatırlayıram, ən çox da atalı-analı günlərimi". Bir az irəli gedir. "Bax, burada xalaqızılarım qalırdı, aşağıda da bizim ev yerləşirdi, qardaşım kəndin mağazasını işlədirdi". Xatirələr çözələnir, Ərkinas xanımın gözləri buludtək dolub. Danışdıqca danışır və nəhayət, gözləri bir nöqtədə kilidlənir...

Bir zamanlar Ordubadın Kilit adlı dayanacağı da var idi. Dağların qoynunda, səfalı bir yerdə yerləşən kənd şəraitsizlikdən tədricən boşalmış, evlərin işıqları sönmüşdü. Əhalisinin bir qismi Ordubad şəhərində və digər yerlərdə məskunlaşmışlar. İndi Kiliddən geriyə qalan, sadəcə, xatirələrdir, bir də quru divarlar. Bu divarlar bir zamanlar insanların sevincinə, kədərinə şərik olub. Neçə uşaq bu kənddə dünyaya göz açıb, ayaq tutub bu torpaqda. İnsanların özü gedib, izi qalıb, sözü qalıb. Bağlar quruyub, tək-tük ağac gözə dəyir. Dəyişməyən tək şey kəndi dövrəsinə alan dağlardır. Sinəsindən kəklikotu, turşəng, quzuqulağı boylanan dağlar...

Ərkinas xanım uçuq damların arası ilə dolaşır, daşlara sığal çəkir. Kim bilir nələri, hansı doğmalarını xatırlayır. Ah çəkir, "Ərkinas nənən hamını, hər şeyi itirdi", – deyir. İtirdiyi dünyasını dəyişən doğmalarıdır, bir də gözünü açıb havasını udduğu, durna gözlü bulaqlarından su içdiyi, dağlarında iz açdığı yurd yeridir. Tək Ərkinas nənə deyil ki. O kənddə doğulan hər kəs doğulduğu torpağın həsrətini çəkir. İnsan dünyanın cənnətində yaşasa da, cənnət onun göz açdığı, ana qucağı qədər doğma və isti olan məkandır. Hər hansı səbəbdən tərk etsə də, insan üçün o yerin havası, suyu dərmandır.

Şahbuzun Qızıl Qışlaq kəndindən Cəmilə Məmmədova yazır: "Bizim doğma dədə-baba yurdumuz olan Zırnel haqqında yazmağı, yenidən xatırlatmağı sizdən xahiş edirəm". 1969-cu ildə torpaq sürüşməsi nəticəsində boşaldılan kənd həmin dövrdə çəkilmiş cəmi bir fotoda və doğma yurd yerindən köç etmiş insanların xatirələrində qalıb. Fotoda hündür dağın ətəyinə sığınmış, yaşıllıq içində bir kənd görünür. Tarixi mənbələr də göstərir ki, ümumilikdə, Şahbuz nahiyəsində 40 yaşayış məntəqəsi mövcud olub. Zırnel Ayrınc kəndindən üzüyuxarı 11 yaşayış məntəqəsindən biri idi. Zırnel Şahbuzun ucqar, səfalı və bol günəşli ərazisində eyniadlı dağın ətəyində, Küküçayın sahilində yerləşən kənd olub. Cəmilə xanımla görüşüb həmsöhbət oluruq. Deyir ki, o vaxt kənddə 100-ə yaxın ev vardı. Maldarlıq, əkinçilik və arıçılıqla məşğul olan kənd əhalisi məşğuliyyətlərini məskunlaşdıqları kəndlərdə davam etdiriblər. Zəngin bitki örtüyünə, dumduru bulaq sularına malik olan yaşayış məntəqəsi bu gün arxivin səhifələrində, bir də insanlarının ürəyində qalıb. Əhalisi, əsasən, Qızıl Qışlaq və Ağbulaq kəndlərində məskunlaşıb. İllərdir, yaşayış olmadığına yollar nahamar olsa da, hələ də torpağın övladları Kükü kəndindən üzüyuxarı, dolanbac yollarla gedib yurd yerini ziyarət edir, xarabalıqları qalmış evlərə baxır, uşaqlıq, gənclik illərini xatırlayırlar. Hazırda yaşadıqları kəndlərdə hər cür şəraitləri olsa da, onlar üçün Vətən göz açdıqları torpaqdan başlayır.

Kilit, Zırnel kimi onlarla kənd zamanla tarixə qovuşsa da, insanların yurd yerinə sevgisi, rəğbəti həmin yaşayış yerlərinin ruhunu yaşadır, izlərini əsrlərdən əsrlərə, nəsillərdən nəsillərə ötürür. İnsanın öz doğulduğu torpağa saygısı gözəl duyğudur. Bu duyğudur torpağı var edən, düşmənlərdən qoruyan, qələbədən qələbəyə aparan. Nə qədər ki, yurduna, elinə, obasına bağlı insanlar var, adı artıq tarixə çevrilən yurd yerləri də qəlblərdə, kitablarda, filmlərdə yaşayacaq və gələcək nəsillərə torpağın hər qarışını sevmək duyğusunu mənəvi borc olaraq xatırladacaqdır.

**Ruhiyyə RƏSULOVA**

# Peşəyə sevgi, sənətə sədaqət



Naxçıvanın o məşhur "Köhnə bazar"ının içərisinə doğru addımladıqca illər öncəyə qayıdır insan elə bil. İllərin izini daşıyan dükanlar, hər küncdən gələn fərqli səslər bu məkanı şəhərin əvəzolunmazına çevirir.

Tarixən sənətkarların, alverçilərin, müştərilərin səsi ilə dolub-daşan bazarın içində bu gün də qədim peşələri yaşatmağa çalışan insanlar var. Onlardan biri də gənc ayaqqabı ustası Hüseyn Mahmudovdur.

Köhnə bazarın sakit guşələrindən birində yerləşən kiçik emalatxanaya daxil olan kimi ilk diqqəti çəkən dərinin özünəməxsus qoxusu, səliqə ilə düzülmüş alətlər və yarımçıq qalmış əl işləridir. Burada hər əşya öz yerindədir. Bu emalatxana həm də bir ailə ənənəsinin, illərin təcrübəsinin və sənət sevgisinin yaşadığı ünvan kimi görünür.

Onun gəncliyi ilə əllərindəki o ağır sənətin illərlə formalaşan izi arasında heyranedici bir təzad var. Hüseyn Mahmudovun yaşı çox olmasa da, əllərində uzun illərin təcrübəsi hiss olunur. Bu peşə Hüseynə yad deyil, əslində. Çünki onun ayaqqabıçılığa gedən yolu ailəsindən başlayıb. Atasının sənəti olan bu peşə zamanla oğul üçün də həyat yoluna çevrilib.

Usta bizimlə söhbət zamanı işini bir anlıq dayandırıb keçmişi xatırlayır: "Bu sənətə marağım hələ məktəb illərindən yaranıb. Təxminən, ikinci-üçüncü sinifdə oxuyanda boş vaxtlarımda ustaların yanına gedirdim. Onların necə işlədiyini izləyirdim. Hər dəfə baxdıqca marağım daha da artırdı. Sonra özüm də öyrənməyə başladım".

Bir çox peşələr insanın seçimi olur, amma bəzi peşələr insanı özü seçir sanki. Hüseyn usta üçün ayaqqabıçılıq da məhz belə olub. Uşaqlıq marağı zamanla peşəyə, peşə isə həyat tərzinə çevrilib.

Masanın üzərində yarımçıq hazırlanmış ayaqqabıya baxaraq danışır: "Müştərinin istəyinə görə iş prosesimiz dəyişir. Elə model olur ki, üç günə hazır olur. Eləsi də var ki, beş gün vaxt aparır. Hər şey sifarişdən asılıdır".

Əslində, müasir dövrdə bir çox insanlar mağazaya gedib bir neçə dəqiqəyə ayaqqabı ala bilirlər. Amma əl işi ayaqqabı hazırlamaq tamamilə başqa prosesdir. Burada tələskənliyə yer yoxdur. Hər mərhələ diqqət və səbir tələb edir. Usta əvvəlcə dərini seçir, sonra ölçülər götürülür, kağız üzərində qəlib hazırlanır, dəri xüsusi qaydada kəsilir, daha sonra hissələr birləşdirilir, tikilir və formaya salınır. Hər detal ustanın nəzarətindən keçir.

Ayaqqabı hazırlanmasının ən çətin hissəsini soruşduqda isə tərəddüd etmədən cavab verir: "Ən çətin mərhələ ayaqqabının üzlüyünün hazırlanmasıdır".



İlk baxışda sadə görünən bu hissə, əslində, ayaqqabının görünüşünü müəyyən edən əsas elementdir. Kiçik bir səhv bütün işi korlaya bilər. Buna görə də burada həm peşəkarlıq, həm də dəqiqlik lazımdır.

Usta işlədikcə alətlərin səsi dükanı doldurur. Bəzən çəkic taxtaya dəyir, bəzən qayçı dərini kəsir, bəzən tikiş maşınının ritmik səsi eşidilir.

Yaşlı sakinlər deyirlər ki, bir zamanlar burada ayaqqabı ustalarının sayı çox olub. Müştərilər növbə gözləyər, ustalar səhərdən axşama qədər işləyərdilər. İndi isə vəziyyət fərqlidir. Hazır məhsulların çoxaldığı, fabrik istehsalının bazarı ələ keçirdiyi bir dövrdə əl işi sənətlər əvvəlki əhəmiyyətini itirmək təhlükəsi ilə üz-üzə qalıb. Hüseyn usta isə bu fikirlə razılaşmır. Onun sözlərinə görə, əl işi ayaqqabı ilə fabrik istehsalı arasında böyük fərq var: "Əl işi ayaqqabıda müştəri özü dərini seçir. Ayaqqabının necə hazırlandığını görür. Usta işi əvvəldən sona qədər özü görür. Fabriklərdə isə məhsul bir neçə işçinin əlindən keçir. Bu da bəzi hallarda keyfiyyətə təsir göstərir".

Doğrudan da, əl işi məhsulun əsas üstünlüyü onun fərdiliyidir. Hər ayaqqabı bir nəfər üçün hazırlanır. Hər tikişdə ustanın zəhməti görünür. Fabrik məhsulları isə minlərlə eyni nümunədən yalnız biridir.

Hüseyn bu peşəni öyrənərkən Naxçıvanın tanınmış ustalarından dərs alıb. O bu gün də müəllimlərini hörmətlə xatırlayır: "Bu sənəti Pərvin, Mehman və Məhəmməd adlı ustalardan öyrənmişəm. Onların hər birinin üzərimdə böyük əməyi var".

Sənətlər yalnız alətlərlə yox, ustaddan şagirdə keçən biliklə yaşayır. Əgər öyrədən olmasa, öyrənən də olmaz. Əgər davam etdirən olmasa, sənət zamanla yox olar. Bəlkə də, buna görə Hüseyn öz ustalarını unutmur. Çünki bu gün onun hazırladığı hər ayaqqabıda həmin adamların da zəhmətindən bir pay var.

Dükanın qarşısından insanlar gəlib keçir. Bəziləri, sadəcə, baxır, bəziləri salam verir, bəziləri isə maraqla içəri boylanır. Amma bu maraq əvvəlki illərdəki qədər deyil. Usta bu barədə danışarkən səsində bir qədər təəssüf hiss olunur. Keçmiş illərdə Naxçıvanda nə qədər istedadlı, əli qızıl ustaların olduğunu, emalatxanalardan gələn o çəkic səslərinin şəhərin nəbzi kimi vurduğunu xatırlayır. İndi isə o böyük nəsildən geriyə bu qədim sənəti çiyinlərində daşıyan çox az adamı qalıb.

Bugünkü gənclərin çoxu tam fərqli dünyaların arxasınca qaçır. Texnologiyanın parıltısı, biznesin sürəti, sosial medianın keçici cazibəsi hamını özünə çəkir. Belə bir axında əcdaddan qalan ənənəvi sənətlər kölgəyə çəkilir. Halbuki bu sənətlər xalqın tarixi yaddaşı, milli mədəniyyətinin barmaq izləridir. Bəlkə də, elə bu səbəbdən Hüseyn Mahmudovun fədakarlığı o unudulmaz yaddaşı gələcəyə daşımaq missiyasıdır.

**Elnurə CƏFƏROVA**

## "Heydər Əliyev kuboku"nun qalibi müəyyənləşib




Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən dövlət qurumlarının komandaları arasında Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünə həsr olunmuş "Heydər Əliyev kuboku" uğrunda futzal turnirinə yekun vurulub.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, iyunun 27-də İlham Əliyev adına Olimpiya İdman Kompleksində keçirilən final mərhələsində üçüncü yer uğrunda oyunda "Azərişıq" ASC-nin Naxçıvan Regional Enerji Təchizatı Satışı İdarəsinin komandası Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin komandasını 7:2 hesabı ilə məğlub edərək bürünc medallara sahib çıxıb.

Final görüşündə isə Fövqəladə Hallar Nazirliyi və Ədliyyə Nazirliyinin komandaları üz-üzə gəlib. Təxminən, 700 tamaşaçının izlədiyi qarşılaşmada FHN komandası 4:3 hesablı qələbə qazanaraq turnirin qalibi olub.

Mükafatlandırma mərasimində ilk üç yerin sahiblərinə diplom və medallar təqdim edilib, qalib komandaya isə turnirin baş mükafatı – "Heydər Əliyev kuboku" verilib.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, AFFA, Azərbaycan Futzal Federasiyası və Naxçıvan Futbol Federasiyasının birgə təşkilatçılığı ilə mayın 16-da start götürən turnirdə 20 komandanın iştirakı ilə, ümumilikdə, 48 oyun keçirilib.

## OXUCULARIN NƏZƏRİNƏ!

### "ŞƏRQ QAPISI" qəzetinə abunə yazılışı davam edir

Abunə yazılışı redaksiyaya müraciət etməklə aparılır.

**1 illik - 112** (yüz on iki) **manat**
**6 aylıq - 56** (əlli altı) **manat**
**3 aylıq - 28** (iyirmi səkkiz) **manat**
**1 aylıq - 9** (doqquz) **manat**

**Hörmətli oxucular!**

Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel: 544-52-52)** zəng vura bilərsiniz.




## Yeni nəşrlər




### "Azərbaycan arxeologiyası" dərs vəsaitinin I cildi nəşr olunub

AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun elmi işlər üzrə direktor müavini, AMEA-nın müxbir üzvü, professor Vəli Baxşəliyevin "Azərbaycan arxeologiyası" dərs vəsaitinin yenidən təkmilləşdirilmiş və zənginləşdirilmiş I cildi işıq üzü görüb.

Dərs vəsaiti AMEA Naxçıvan Bölməsi Rəyasət Heyətinin və Naxçıvan Dövlət Universiteti Elmi Şurasının qərarı ilə çapa təqdim olunub.

"Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində nəfis tərtibatla çap olunan kitab Ümummilli Lider Heydər Əliyevin ***"Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam"*** kəlamı ilə başlayır.

Yeni nəşrin elmi redaktoru AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, professor Hacıfəxrəddin Səfərlidir. Kitabın rəyçiləri tarix elmləri doktoru, professor Abbas Seyidov və tarix elmləri doktoru Məlahət Fərəcovadır.

Giriş, Paleolit, Mezolit, Neolit, Erkən, Orta və Son Eneolit, həmçinin İlk, Orta və Son Tunc dövrlərini əhatə edən bölmələrdən və nəticədən ibarət olan kitabda Azərbaycanın ən mühüm tarixi abidələri barədə geniş məlumat verilir.

Qeyd edək ki, ölkəmizin qədim mədəniyyətləri haqqında bütöv təsəvvür yaradan və Azərbaycan arxeologiyasının aktual problemlərini ön plana çəkən bu fundamental vəsait ali məktəb tələbələri, tədqiqatçılar və geniş oxucu kütləsi üçün nəzərdə tutulub.

## Bu nəticə daha böyük qələbələrə aparan yolun başlanğıcıdır




Bakı şəhərində keçirilən Məktəblilərin Respublika İdman Olimpiadası Naxçıvan təmsilçiləri üçün olduqca uğurlu və yaddaqalan nəticələrlə başa çatıb. Muxtar respublikanı layiqincə təmsil edən gənc idmançılar müxtəlif idman növləri üzrə mübarizə apardılar. Məktəblilər 4 qızıl, 1 gümüş və 9 bürünc olmaqla, ümumilikdə, 14 medal qazanaraq muxtar respublikanı layiqincə təmsil etdiblər. Muxtar respublikaya uğurla qayıdan gənclər təəssüratlarını "Şərq qapısı" qəzeti ilə bölüşüblər.

Boks yarışlarında 80 kiloqramdan yuxarı çəki dərəcəsində bütün rəqiblərini geridə qoyaraq qızıl medala sahib olan Məhəmməd Mustafayev bu qələbənin təsadüfi olmadığını, arxasında uzunmüddətli və məqsədyönlü məşqlərin dayandığını vurğulayıb. Gənc boksçu yarış boyu əsas hədəfinin təkcə qalib gəlmək yox, həm də rinqdə öz texniki göstəricilərini yeniləmək və Naxçıvanın adını layiqincə ucaltmaq olduğunu qeyd edib. Fəxri kürsünün ən yüksək pilləsinə ucalmağın ona sonsuz bir qürur hissi yaşatdığını deyən çempion bu parlaq nəticənin gələcək turnirlərə daha böyük məsuliyyət və əzmlə hazırlaşmaq üçün yeni bir stimul, güclü bir motivasiya qaynağı olduğunu bildirib.

Ağırlıqqaldırma yarışlarında 52 kq çəki dərəcəsində gərgin mübarizə apararaq gümüş medala sahib olan Ümid Hüseynov turnirin kifayət qədər ağır və rəqabətli keçdiyini, platformada hər bir çəkiyə qarşı son saniyəyədək iradə nümayiş etdirdiyini və fədakarlıqla medalı qazandığını vurğulayıb. Qazanılan gümüşün onu çox sevindirdiyini, lakin bunun, sadəcə, bir başlanğıc olduğunu deyən idmançı növbəti hədəfinin mütləq qızıl medal olacağını və bunun üçün daha çox çalışacağını qeyd edib.

Atletika yarışlarında 600 metr qaçış növü üzrə fəxri kürsüyə yüksələrək bürünc medala sahib olan Murad Babayev olimpiadanın olduqca yüksək rəqabət mühitində keçdiyini qeyd edib. Medal qazanmağın hər bir idmançı üçün sevindirici bir addım olduğunu deyən Murad hədəflərinin bu nəticə ilə məhdudlaşmadığını və qaçış cığırında daha böyük uğurlar qazanmaq üçün hər zaman daha çox çalışacağını bildirib. Bu bürünc mükafatın onun öz üzərində daha əzmlə çalışması üçün güclü bir motivasiya qaynağı olduğunu qeyd edən gənc atlet gələcək arenalarda Naxçıvanın adını çempionluq ilə ucaldacağına söz verib.

Naxçıvan Muxtar Respublikasının gənc idmançıları bu turnirdə olduqca geniş və peşəkar heyətlə təmsil olunublar. Komandanın tərkibində 8 fərqli idman növü üzrə, ümumilikdə, 64 məktəbli idmançı paytaxta yollanıb və onlara 17 təcrübəli məşqçi-müəllim rəhbərlik edib.

Məşqçi-müəllimlərin fikrincə, məktəblilər səviyyəsində əldə olunan bu cür yüksək nəticələr muxtar respublikada güclü idman potensialının və sağlam nəslin yetişdiyini göstərir. Yarışda iştirak edən hər şagirdin qazandığı təcrübə və nümayiş etdirdiyi əzmkarlıq gələcəkdə daha böyük, o cümlədən beynəlxalq miqyaslı turnirlərdə Naxçıvanı və bütövlükdə, Azərbaycanı uğurla təmsil edə biləcək peşəkar idmançıların yetişməsi üçün möhkəm zəmin yaradır.

Respublika miqyaslı bu turnirdə qazanılan yüksək nəticələr növbəti illərdə Naxçıvanda idmanın inkişaf tempinin daha da sürətlənəcəyinə və ölkəmizi beynəlxalq arenalarda təmsil edəcək yeni çempionların yetişəcəyinə dair aydın göstəricidir.

✍ **Elnurə CƏFƏROVA**

### *İtmişdir*

Naxçıvan şəhəri, H. Vəzirov küçəsi, döngə 1, ev 5 ünvanında yerləşən Səfərov Tural Qadir oğlunun mülkiyyətində olan evin 11.09.2015-ci il tarixli, 2819 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Vayxır kəndində Məmmədov Qulu Rəhim oğlu ailə üzvləri ilə birlikdə (1 nəfər) JN-33$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Babək rayon sakini Mahmudov Qənbər İsmayıl oğlunun adına olan JN-128 inventar nömrəli, 10302028 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Qoşadizə kənd sakini Nuriyev Abasət Babalı oğlunun adına olan JN-138$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Kəngərli rayonu, Xok kəndində yaşamış Cəfərova Xanım K.Cavad qızının adına olan JN-216$^{A}$ nömrəli, 10800038 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Mahmudkənd kəndində yaşamış Həsənov Əmiraslan Hüseyn oğlunun adına verilmiş JN-069$^{A}$ nömrəli, 10204028 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Xanlıqlar kəndində yaşamış Cavadova Güllü Teymur qızına məxsus JN-64$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Düdəngə kənd sakini Məmmədov Məmməd Paşa oğluna məxsus JN-189$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Kosacan kəndində yaşamış Tağıyev İsa Tağı oğlunun adına verilmiş JN-246 nömrəli torpağın mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Xal-xal kəndində yaşamış Fərzəliyev Oqtay Qaçay oğlunun adına olan JN-0011 nömrəli, 10313028 kodlu dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Kültəpə kənd sakini Səfərov Habil Məhəmməd oğlunun adına verilmiş JN-404$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, H.Cavid küçəsi 14 ünvanında yaşamış Seyidova Ruqiyyəxanım M.Heydər qızına məxsus evin 333 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Yengicə kəndində yaşamış Seyidov Miryusif Mirəhməd oğlunun adına olan JN-687$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Siyaqut kənd sakini Quliyeva Bağdagül Hüseyn qızının adına verilmiş JN-260 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Axaməd kənd sakini Həmzəyeva Raziyə Hüseyn qızına məxsus JN-87 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Babək rayon sakini Məmmədov Məmməd Ayaz oğlunun adına olan müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusunun AD-0055599 seriya nömrəli hərbi buraxılış vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ QAPISI
**Baş redaktor:** RƏMZİ TAHİRLİ

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *info@serqqapisi.gov.az*

Qeydiyyat №: 575
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*
*Vöen: 0200065441*

Çapa imzalanmışdır 00:00
Tiraj: 550. Sifariş № 137

*Nömrəyə məsul:* **Ceyhun Məmmədov, Günay Hacıyeva, Elnurə Cəfərova**
*Dizayner:* **Həbibə Allahverdiyeva**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*